AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 25 (1370), 22 - 25 iyun 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Azad Rəhimov Qarabağ veteranları və Aprel döyüşlərinin iştirakçılarını qəbul edib

Gənclər və idman naziri Azad Rəhimov Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin dəstəyi, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin təşkilatçılığı ilə Türkiyədə səfərdə olmuş qazilərdən, Aprel döyüşlərində iştirak etmiş ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyətini qəbul edib.

Azad Rəhimov, nazirliyin həyata keçirdiyi layihələrdə vətənpərvərlik mövzusunun xüsusi əhəmiyyət daşıdığını bildirərək, ölkə rəhbəri tərəfindən imzalanan və müxtəlif illəri əhatə edən "Azərbaycan gəncliyi Dövlət Proqramı"nda da bu sahənin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Nazir vətənpərvərlik sahəsində həyata keçirilən tədbirlərdən danışarkən, "Şahinlər", "Qəhrəmanlarımızı tanıyaq və tanıdaq", "Hünər", "Tarixin canlı səhifələri" və digər layihələr gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsində rolundan danışıb.

Azad Rəhimov yetişməkdə olan gənc nəsildə vətənpərvərlik hissinin daha da artırılması, onların tariximizi daha dərindən bilmələri üçün orta və ali təhsil müəssələrində qazilər və Aprel döyüşlərinin iştirakçıları ilə görüşlərin təşkil edilməsini təklif edib.

Görüşün sonunda Türkiyədə səfərdə olmuş qazilərdən, Aprel döyüşlərində iştirak etmiş ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyətinin üzvləri gənclər və idman nazirliyinin rəhbərliyinə öz təşəkkürlərini bildiriblər.



## AYOF-2019 yarışlarına hazırlıq işləri müzakirə edilib

Gənclər və idman nazirliyində nazir Azad Rəhimovun rəhbərliyi ilə 2019-cu il iyulun 20-28-də Bakıda keçiriləcək Avropa Yeniyetmələri Olimpiya Festivalına (AYOF) hazırlıq işləri müzakirə olunub.

Görüşdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, nazir müavini İsmayıl İsmayılov, nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov, idman federasiyalarının rəsmiləri və idman mütəxəssisləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azad Rəhimov əvvəlcə Avropa Yeniyetmələrinin Olimpiya Festivalının tarixindən, ötən illərdə yarışların Paris, Lissabon, Tbilisi və digər şəhərlərdə keçirildiyindən, 2019-cu ildə isə növbəti festivala Bakının ev sahibliyi edəcəyindən danışıb.

Toplantı zamanı məlumat verilib ki, 6 gün davam edəcək yarışlarda iştirak üçün Bakıya 50 Avropa ölkəsindən 2000 idmançı, 1500-dən artıq nümayəndə heyəti, ümumilikdə 3500-4000 qonağın gələcəyi gözlənilir. İdmançılar ümumilikdə 10 idman növü (əsas 9, ev sahibi olan ölkəyə əlavə 1 idman növü verilir: atletika,basketbol, velosiped, idman gimnastikası, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, sərbəst və yunan-Roma güləşi) üzrə mübarizə aparacaqlar. AYOF-2019-un açılış mərasiminin "Crystal Hall"da keçiriləcəyi diqqətə çatdırılıb.

Müzakirə zamanı yarışların keçiriləcəyi idman arenalarının hazırlanması üçün görüləcək işlər, idmançıların yarışlara hazırlığı, texniki məsələlər barədə də məlumat verilib.

Nazir Azad Rəhimov tədbirin sonunda bildirib ki, qarşıda idmançılarımızı mötəbər idman yarışları gözləyir. Bu il Argentinanın Buenos-Ayres şəhərində Yeniyetmələrin Yay Olimpiya Oyunları təşkil olunacaq. Gələn il Minskdə II Avropa Oyunları baş tutacaq. Nazirin sözlərinə görə, bu idman tədbirlərinin hər biri Tokio-2020 Yay Olimpiya Oyunlarına gedən yolda böyük əhəmiyyət daşıyır və idmançılarımızın mübariz və hazırlıqlı olmaları da əsas şərtlərdən biridir.

## Bakı lisenziya yarışlarına ev sahibliyi edəcək

İyunun 23-də Bakı Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya verəcək idman gimnastikası üzrə təsnifat yarışlarına ev sahibliyi edəcək. Yarışlarda dünyanın 33 ölkəsindən 58 kişi və 54 qadın gimnast mübarizə aparacaq.

Kişi gimnastlar 16-17 yaş, qadın gimnastlar isə 15 yaş kateqoriyasında mübarizə aparacaqlar. Ölkəmizi isə bu yarışda Samirə Qəhrəmanova, Ağamurad Qəhrəmanov və Səməd Məmmədli təmsil edəcəklər. Təsnifat yarışlarında çoxnövçülük proqramında çıxışların nəticələrinə əsasən, hər ölkədən yalnız bir nəfər olmaqla ilk 17-likdə yer almış iştirakçılar Buenos-Ayresə getmək imkanı əldə edəcəklər.




## Olimpizm

### AOK nümayəndə heyəti hazırlıq işlərini yüksək qiymətləndirib

Avropa Olimpiya Komitəsinin (AOK) ekspertləri Minsk şəhərinin 2019-cu ildə keçiriləcək II Avropa Oyunlarına hazırlıq səviyyəsini yüksək qiymətləndiriblər.

AOK nümayəndə heyəti Əlaqələndirmə Komissiyasının Minskə son səfərindən sonra bütün istiqamətlərdə hazırlıq işlərinin sürətləndirildiyindən razı qaldığını bildirib.

Belarus Milli Olimpiya Komitəsinin (MOK) nümayəndəsi Anatoli Kotovun sözlərinə görə, Minsk-2019 Avropa Oyunlarının proqramı tam hazırdır və yarışlarda 200-dən çox medal dəsti oynanılacaq. Proqramda yer alan 15 idman növündən 10-u Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya verəcək.

Məlumat üçün bildirək ki, II Avropa Oyunları 2019-cu il iyunun 21-30-da Belarusun Minsk şəhərində keçiriləcək. Proqramda badminton, basketbol, boks, güləş, velosiped idmanı, gimnastika, baydarka və kanoedən avarçəkmə, cüdo, karate, atletika, sambo, atıcılıq, stolüstü tennis, kamandan oxatma və çimərlik futbolu yer alıb.

## Anons

*Avropa çempionatında pəhləvanlarımızdan 6 medal*

İdman gimnastları Azərbaycan birinciliyində yarışacaqlar

*Usta cüdoçularımız vətənə qayıdıblar*

Yeni miniatür kitab çapdan çıxıb

*Qitə çempionatı başa çatıb*

Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş beynəlxalq turnirə start verilib

Səh. 2

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

## Çingiz Hüseynzadə:

"Olimpiya proqramında aparılan islahat və edilən dəyişikliklər zamanın tələbidir" Səh. 3

olimpnews.az - sizin saytınız




*Xüsusi buraxılış - 2* Səh. 4-6




Bayrağımız qürur mənbəyimizdir

**Klublarımızın UEFA Avropa Liqasındakı rəqibləri müəyyənləşdi**

**Basketbolçularımız yeni sınaq qarşısında**

Səh. 7

# İdman gimnastları Azərbaycan birinciliyində yarışacaqlar

Azərbaycan Gimnastika Federasiyası yerli yarışlar mövsümünə start verib.

Biri-birinin ardınca beynəlxalq yarışlara ev sahibliyi edən Milli Gimnastika Arenası iyunun 29-30-da kişi və qadın idman gimnastikası üzrə Azərbaycan birinciliyi və Bakı çempionatına hazırlaşır. İki gün davam edəcək yarışda ümumilikdə, 100-dən çox gimnast qüvvəsini sınayacaq.

Yarışlarda qadın idman gimnastları böyüklər, gənclər, yeniyetmələr, uşaqlar, balacalar və kişi idman gimnastları isə böyüklər, gənclər, yeniyetmələr, uşaqlar, balacalar, kiçiklər və balalar yaş qrupunda mübarizə aparacaqlar.

# Yeni miniatür kitab çapdan çıxıb

Buyaxınlarda görkəmli ictimai xadim, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri Zərifə Salahovanın yeni kitabı işıq üzü görüb.

Miniatür kitab ölkəmizin 2017-ci ildə uğurla ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarına həsr olunub. Kitabın əvvəlində Azərbaycan Respublikası Prezidentinin IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncamı, I vitse-prezident, ölkənin birinci xanımı Mehriban Əliyevanın yarışların açılış mərasimindəki çıxışı öz əksini tapıb. Mehriban Əliyevanın çıxışı həm də ingilis dilində verilib. Daha sonra burada Bakı-2017 Oyunlarının qalib və mükafatçıları, eləcə də, yarışlar barədə ətraflı məlumat yer alıb.




Qeyd edək ki, Zərifə Salahova ölkə rəhbərinin Sərəncamı ilə Azərbaycanda kitab mədəniyyətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.




# Avropa çempionatında pəhləvanlarımızdan 6 medal

Macarıstanın Györ şəhərində 2003-2004-cü il təvəllüdlü yeniyetmələr arasında Avropa çempionatı keçirilib. Çempionatda iştirak edən kiçik yaşlı yeniyetmələrdən ibarət yığmamızın üzvləri vətənə 6 (1 qızıl, 1 gümüş və 4 bürünc) medalla qayıdıblar. Yunan-Roma güləşçilərimiz 1 qızıl və 1 bürünc medal qazandığı halda, sərbəstlər 1 gümüş və 3 bürünc medala sahib olub. Yunan-Roma güləşi yarışlarında bütün rəqiblərindən üstün olan Elmir Əliyev (52 kq) qızıl medal və Avropa çempionu adını qazanıb. 68 kq-da mübarizə aparan Əli Əlizadə isə bürünc medala yiyələnib. Sərbəst güləşçilərin mübarizəsində yalnız final görüşündə uduzan Məmməd Əhmədov (57 kq) gümüş medalla kifayətlənib. Bürünc medalları isə yığmamıza Ceyhun Allahverdiyev (44 kq), Əkbər Vəliyev (48 kq) və Varis Mehdizadə (75 kq) qazandırıb. Görüşlərin idarə edilməsində ölkəmizi milli dərəcəli hakimlər Həbub Nurulu və Əli Babayev təmsil edib.

# Usta cüdoçularımız vətənə qayıdıblar

Şotlandiyanın Qlazqo şəhərində veteranlar arasında Avropa çempionatında böyük uğura imza atmış cüdoçularımız Vətənə qayıdıblar. Komandamız mötəbər turnirdə 5 qızıl, 9 bürünc medal qazanaraq komanda hesabında 4-cü yeri tutub. Millimizin üzvlərini Heydər Əliyev Beynəlxalq Hava Limanında Azərbaycan Cüdo Federasiyasının rəsmiləri, idman ictimaiyyətinin nümayəndələri, jurnalistlər və idmançıların ailə üzvləri qarşılayıblar.

Qeyd edək ki, usta cüdoçularımız Fərhad Rəcəbli, Məmməd Məmmədov, Samir İsmayılov, Azər Fətullayev və İntiqam Ələkbərov bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanıblar. Azər Əsgərov, Vüqar Babayev, Vüqar Budaqov, Yamən Fətiyev, Babək Hacıyev, Rüfət İsmayılov, Hafiz Hacıyev, Məhəmməd Müslümzadə və Zaur Paşayev qitə çempionatının bürünc medalına sahib olub. Milli komandamız iki yaş kateqoriyası üzrə (30-40, 40-50) keçirilən komanda yarışlarında bürünc medala layiq görülüb.

# Ölkə birinciliyinin qalibləri müəyyənləşdi

Sumqayıt Olimpiya İdman Kompleksində U-23 gənclər arasında Azərbaycan birinciliyinə yekun vurulub.

Yarışın ikinci günü oğlanlar arasında 5 çəki dərəcəsində mükafatçılar məlum olub. Rüfət Məmmədov (73 kq), Samir Ağayev (81 kq), Azər Yaqubov (90 kq), Adil Kərimli (100 kq), Camal Feyziyev (+100 kq) qızıl medal qazanıb.

Ümumi medal sayında "Neftçi İdman Klubu" İB 11 medal (3 qızıl, 3 gümüş və 5 bürünc) qazanaraq birinci olub. "Atilla" klubu 4 medal (3 qızıl və 1) əldə edərək ikinci yeri tutub. 5 medala (1 qızıl, 2 gümüş və 2 bürünc) sahib olan "Cudo Club 2012" isə ölkə birinciliyini üçüncü yerdə başa vurub.




Qalib və mükafatçılara Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının diplom və medalları təqdim olunub.

Qeyd edək ki, iki gün davam edən ölkə birinciliyində ümumilikdə 49 klubdan 373 cüdoçu (306 oğlan, 67 qız) mübarizə aparıb.

## Həndbolçularımız açıq Avropa turnirində mübarizə aparacaqlar

İyulun 2-dən 6-dək İsveçin Göteborq şəhərində 16 yaşınadək qızlar arasında həndbol üzrə 14-cü açıq Avropa turniri keçiriləcək.

Turnirdə 20 komanda dörd qrupda mübarizə aparacaq. C qrupunda yer alan 2002-2003-cü illər təvəllüdlü qızlardan ibarət Azərbaycan yığmasının rəqibləri Fransa, İspaniya, Finlandiya və İslandiya milliləri olacaq.

Xatırladaq ki, turnirdə ilk yeddi yerin sahibi 2019-cu il iyulun 20-dən 28-dək Bakıda keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalına vəsiqə qazanacaq.

## "All Stars Cup" turnirinə yekun vurulub

Çexiyanın paytaxtı Praqada keçirilən "All Stars Cup" turnirinə yekun vurulub. "Qəbələ"nin 16 yaşınadək futbolçulardan ibarət komandası yarışın son oyun günündə 3 matç keçirib. 9-16-cı yerlər uğrunda mübarizə aparan "qırmızı-qaralar" əvvəlcə Çexiyanın "Fastav Jlin" klubu ilə qarşılaşıb. Qolsuz bitən görüşdə penalti zərbələrini daha dəqiq yerinə yetirən meydan sahibləri qalib gəliblər - 5:4. Çexiyanın digər təmsilçisi "Slovaçko"ya 0:2 hesabı ilə uduzan "Qəbələ" son qarşılaşmada Türkiyə "Beşiktaş"ı ilə üz-üzə gəlib. Qolsuz bitən görüşdə komandamız penaltilərlə qalib gəlib - 6:5. Beləliklə, "qırmızı-qaralar" turniri 15-ci yerdə başa vurub. Turnirin qalibi adına isə finalda Almaniyanın "Herta" klubuna 2:0 hesabı ilə qalib gələn İspaniyanın "Barselona" komandası yiyələnib.

## *Yığmamız qitə çempionatına Astarada hazırlaşır*

Kişi voleybolçulardan ibarət Azərbaycan yığması təlim-məşq toplanışında iştirak edir. Astarada start götürən hazırlıqlar Avropa çempionatının seçmə mərhələsinə hazırlıq məqsədi daşıyır.

Cənub bölgəsində məşqlər iyulun 5-dək davam edəcək. Yığmamızın baş məşqçisi Fərid Cəlalov təlim-məşq toplanışına 17 oyunçu cəlb edib. Qeyd edək ki, millimiz Avropa çempionatının seçmə mərhələsinin G qrupunda Yunanıstan, İsveç və Lüksemburqla oynayacaq.

## *Voleybolçumuz İtaliya klubunda*

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvü Odina Bayramova karyerasını yenidən İtaliyada davam etdirəcək.

Hücumçu "Keri" klubu ilə birillik müqavilə imzalayıb.

Qeyd edək ki, voleybolçumuz sonuncu mövsümü İtaliyanın "Firentse" klubunda keçirib.



# Qitə çempionatı başa çatıb

Bolqarıstanın Plovdiv şəhərində keçirilən parataekvondo üzrə Avropa çempionatına yekun vurulub. Qitə çempionatında yığmamızın üzvlərindən İmaməddin Xəlilov (K-44, 61 kq), Nicat Müslimov (K-43, 75 kq), Əbülfəz Abuzərli (K-44, 75 kq), Vüqar Adışirinov (K-44, 75 kq-dan yuxarı) və Aynur Məmmədova (K-44, 58 kq-dan yuxarı) təmsil olunub. İdmançılarımız yarışda böyük məşqçilər Yaşar Səfərov və Fərid Tağızadənin rəhbərliyi altında iştirak ediblər. Sayca 7-ci dəfə keçirilən qitə çempionatında beş idmançı ilə təmsil olunan milli yığma komandamızın iki üzvü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Belə ki, (K-44, 58 kq) çəki dərəcəsində mübarizə aparan qadın taekvondoçumuz Aynur Məmmədova yarışın qızıl medalını qazanıb. Nicat Müslümov isə (K-43, 75 kq) isə yarımfinalda məğlub olaraq, yarışı bürünc medalla başa vurub. Digər üç təmsilçimiz - İmaməddin Xəlilov, Əbülfəz Abuzərli və Vüqar Adışirinov yarımfinala vəsiqə uğrunda görüşdən məğlub ayrılıb.

Xatırladaq ki, Plovdiv şəhərinin "Kolodruma" idman sarayında keçirilən G4 kateqoriyalı yarışın qalibləri aktivlərinə 40 reytinq xalı əlavə ediblər.



## *Avropa Liqası bu gün start götürür*

Bu gün Bakıda çimərlik futbolu üzrə Avropa Liqası turniri start götürəcək. Turnir zamanı iki qrup olmaqla, ümumilikdə səkkiz komanda mübarizə aparacaq.

Azərbaycan millisi Portuqaliya, Belarus və Fransa yığmaları ilə qarşılaşacaq. İsveçrə, İtaliya, Ukrayna və Almaniya milliləri isə II qrupda mübarizə aparacaq.

Bakı Su İdmanı Sarayında təşkil olunacaq turnirə iyunun 24-də yekun vurulacaq.




# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş beynəlxalq turnirə start verilib

İyunun 21-də "Qara dəniz və Xəzəryanı" ölkələr arasında Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq karate turnirinə start verilib.

Gənclər və İdman Nazirliyi və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkil etdiyi yarışda 10-a yaxın ölkəni təmsil edən idmançılar mübarizə aparırlar.

"Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən xatirə turnirində müxtəlif dərəcələr üzrə karateçilər güclərini sınayırlar.

Turnirdə fərqlənən idmançılara fərdi yarışlarda medal və diplom, komanda çıxışlarında isə kubok təqdim olunacaq.

# Xarkovda beynəlxalq turnir

Azərbaycanın və Türkiyənin Xarkovdakı fəxri konsulluqlarının təşəbbüsü ilə bu şəhərdə stolüstü idman oyunları üzrə beynəlxalq turnir keçirilib.

Beynəlxalq turnirdə Ukraynada akkreditə olunmuş 20-yə yaxın ölkənin fəxri və baş konsulluqları, Xarkov şəhər meriyasının, ATƏT-in və BMT-nin Ukraynadakı nümayəndəliklərinin əməkdaşları iştirak ediblər.



Beynəlxalq Olimpiya Komitəsinin yaradılmasının 124-cü ildönümünə həsr olunmuş turnirin açılış mərasimində Azərbaycanın Xarkov şəhərindəki fəxri konsulu Əfqan Salmanov çıxış edərək son illər ölkəmizdə bir çox sahələrlə yanaşı, idmanın inkişafına göstərilən dövlət qayğısından söz açıb. Vurğulanıb ki, sosial iqtisadi inkişaf tempinə görə bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan dünyanın ən möhtəşəm idman yarışlarına ev sahibliyi edib.

İdmanın dünya xalqlarının sülh və əmin-amanlıq rəmzinə çevrildiyini bildirən Xarkov şəhər merinin müavini Konstantin Loboyçenko idman oyunlarının keçirilməsi təşəbbüsü ilə çıxış edən Azərbaycan və Türkiyənin fəxri konsulluqlarına minnətdarlığını bildirib.

Çıxışlardan sonra stolüstü idman oyunları üzrə beynəlxalq turnirə start verilib. On beş komandanın iştirak etdiyi turnirdə idmançılar stolüstü tennis, şahmat, nərd, dama, atıcılıq və digər stolüstü oyunlar üzrə bacarıqlarını nümayiş etdiriblər. İki gün davam edən turnirdə Türkiyənin Xarkov şəhərindəki fəxri konsulluğunun komandası 1-ci yeri tutub. Azərbaycanın Xarkov şəhərindəki konsulluğunun komandası 2-ci, İsrailin yığma komandası isə 3-cü yerə çıxıblar.

Qalib komandalara Xarkov Şəhər Administrasiyasının diplomları və kubokları təqdim olunub.




*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Çingiz Hüseynzadə:

# “Olimpiya proqramında aparılan islahat və edilən dəyişikliklər zamanın tələbidir”

***Azərbaycan idmançılarını qarşıda bir sıra mötəbər yarışlar gözləyir. Bu il Argentinanın Buenos-Ayres şəhərində Yeniyetmələrin III Yay Olimpiya Oyunları keçiriləcək. Gələn il Minskdə II Avropa Oyunları təşkil ediləcək. Gələn il ölkəmiz həm də Avropa Yeniyetmələrinin XV Olimpiya Festivalına ev sahibliyi edəcək. Bu böyük idman tədbirlərinin hər biri Tokio-2020 Yay Olimpiya Oyunlarına gedən yolda mühüm əhəmiyyət daşıyır.***

***“Olimpiya dünyası” qəzeti olaraq Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə ilə görüşərək atletlərimizin iştirak edəcəkləri yarışlar, AYOF-a ev sahibliyi və digər məsələlərlə bağlı müsahibə aldıq.***



***- Çingiz müəllim, Avropa Atletika Federasiyasının rəsmiləri bugünlərdə ölkəmizdə səfərdə oldular. Səfərdə məqsəd nə idi?***

- Avropa Atletika Federasiyasının (EAF) prezidenti Svein Arne Hansen bu vəzifəyə 2 ilə yaxındır ki, təyinat alıb. Beynəlxalq idman qurumunun yeni rəhbəri kimi o, üzv ölkələrdə olur, yerlərdə atletika idman növünün inkişafı, yarışların təşkili məsələləri ilə maraqlanır. Avropa Atletika Federasiyasının rəsmilərinin ölkəmizə səfərinin məqsədi Azərbaycan Atletika Federasiyasının (AAF) fəaliyyəti ilə yaxından tanış olmaq idi. Rəsmi nümayəndə heyəti federasiyada olarkən hakimlər, idmançı, məşqçilərlə görüşdü, iş planı ilə tanış oldu. Qonaqlar federasiyada görülən işlərdən, əldə olunan nəticələrdən razı qaldılar. EAF rəsmiləri Avropa çempionu Nazim Babayev və dünya çempionu, həmyerlimiz Ramil Quliyevin ilk məşqçisi Tofiq Əliyevlə, xüsusi olaraq görüşdülər. Nümayəndə heyətinin üzvləri səfərdə olduğu müddətdə baş nazirin müavini, 2019-cu ildə Bakıda keçiriləcək Avropa Yeniyetmələrinin Olimpiya Festivalı (AYOF) Təşkilat Komitəsinin sədri Yaqub Eyyubovun, Azərbaycan gənclər və idman naziri Azad Rəhimovun qəbulunda oldular. Qeyd edim ki, AYOF-nın proqramında atletika idman növü xüsusi yer tutur. Məhz bu səbəbdən AYOF-da atletika yarışlarının təşkili ilə bağlı fikir mübadiləsi aparıldı. Svein Arne Hansen Azərbaycanın atletika sahəsindəki təcrübəsini digər Avropa ölkələri üçün nümunə göstərdi. Bir sözlə, Avropa Atletika Federasiyasının rəhbərliyi, nümayəndə heyəti AAF-nın fəaliyyətindən çox razı qaldılar və Azərbaycana səfərlərini yüksək qiymətləndirdilər.

***- Azərbaycan I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarından sonra istənilən mötəbər idman tədbirinə yüksək səviyyədə ev sahibliyi edə bilər. Necə düşünürsünüz?***

- Ölkəmiz 2015-ci ildə I Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi etdi. Ölkəmizin ev sahibliyi etdiyi bu mötəbər yarışlarda əldə olunan təcrübə, yaradılan infrastruktur bizə istənilən kompleks yarışları keçirmək imkanı verir. Kompleks yarışları keçirmək üçün ilk növbədə infrastrukturun olması çox vacibdir. Ölkəmizdə mövcud olan idman qurgularının demək olar ki, hamısı işlək vəziyyətdədir. İkinci tərəfdən, təşkilati işlərdə peşəkar mütəxəssislərimiz də formalaşıb. I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarında böyük təcrübə əldə edən azərbaycanlı mütəxəssislər artıq xarici ölkələrdən dəvət alırlar. Ötən il Çində keçirilən Asiya Oyunları Təşkilat Komitəsində bizim mütəxəssislərin köməyindən istifadə olundu. Onların arasında atletika üzrə 10-dan artıq hakimimiz də var idi. Azərbaycanlı mütəxəsislər hazırda Minsk-2019 Avropa Oyunlarına hazırlıq işlərində fəal iştirak edirlər.

Gələn il ölkəmizdə keçiriləcək Avropa Yeniyetmələrinin Olimpiya Festivalını öz gücümüzlə həyata keçirəcəyik və xaricdən mütəxəssis dəvət etməyə ehtiyac qalmayacaq. Yarışlar zamanı yeni idman qurğusunun inşasına və hətta mövcud olanların bərpasına belə lüzum yoxdur. Bir sözlə, biz bu yarışa tam hazırıq. AYOF Təşkilat Komitəsi payızdan etibarən hazırlıq prosesinə start verəcək. Çox güman ki, AOK-un Koordinasiya Şurasının iclası iyul ayında Bakıda keçiriləcək. Yarışların keçiriləcəyi arenalar artıq müəyyənləşib. Proqramda nümayiş etdirilən 10 idman növü üzrə uyğunlaşmış arenalarımız mövcuddur.

***- Yeniyetmə idmançıların yerləşdirilməsi məsələsi necə həyata keçiriləcək?***

- Adətən, digər festivallarda idmançılar universitetlərin yataqxanalarında yerləşdirilir. Bizdə kifayət qədər yataqxana olmadığından iştirakçılar “Atletlər kəndi”ndə onlar üçün ayrılan kiçik binada yerləşəcəklər. Burada 1 otaqda 4 nəfəri yerləşdirmək mümkündür. “Atletlər kəndi”ndə lazım olan hər bir şərait vardır. Burada 6 böyük bina yarışlar üçün saxlanılıb, qalanı isə satışa çıxarılıb.

***- Avropa Yeniyetmələrinin Olimpiya Festivalının adında dəyişiklik gözlənilirmi?***

- Bu yarışda ancaq 14-17 yaşında yeniyetmələr, başqa sözlə, məktəbli idmançılar iştirak edirlər.Yarışlar məktəbdə dərslərin başa çatdığı bir vaxtda, yəni iyul ayında keçirilir və bu tarix dəyişməz qalır. Bu beynəlxalq yarış ilk vaxtlar Avropa Yeniyetmələrinin Olimpiya Günləri adlanırdı. Sonra yarışların adı dəyişdirilərək Olimpiya festivalı adlanmağa başladı. AOK hazırda bu yarışların adının yenidən dəyişdirilməsi ilə bağlı müzakirələr aparır. Mən AOK İcraiyyə Komitəsinin üzvü kimi bu müzakirələrdə iştirak edirəm. AOK-un rəhbərliyi altında artıq bir neçə yarışlar- Yeniyetmələrin Olimpiya Oyunları, Avropa Oyunları keçirilir. Təklif var ki, festival Avropa Yeniyetmələrinin Oyunları adlandırılsın. Düşünürəm ki, bir neçə ildən sonra AYOF başqa ad altında keçiriləcək.

## “Minsk-2019 Avropa Oyunları fərqli olacaq”

***- Çingiz müəllim, necə düşünürsünüz, II Avropa Oyunlarında Minsk Bakının uğurunu təkrarlaya biləcəkmi?***

- İlklər heç vaxt təkrar olunmur. Azərbaycan I Avropa Oyunları ilə tarix yazdı və bu barədə hələ çox danışılacaq. Minsk-2019 Avropa Oyunlarına gəlincə, bu yarışlar fərqli olacaq. Yarışların proqramında idman növlərinin sayı əvvəlki oyunlara nisbətən az olacaq, cəmi 15 növ. Bu da hər şeyi deyir. Bir də Bakı-2015 Avropa Oyunlarından fərqli olaraq Minskdə paralimpiya növləri proqramda yer almayacaq. Bu da təbii ki, həm iştirakçıların, həm də medalların sayına təsir göstərəcək. Yarışlarda iştirak etmək hüququ da fərqlidir. Minsk-2019 Təşkilat Komitəsi yarışların yüksək səviyyədə keçirilməsi üçün ciddi çalışır, cəhd göstərir. Yarışların büdcəsi əvvəldə nəzərdə tutulduğundan xeyli artıb. Halbuki əvvəl az vəsait ayrılmışdı. Təbii ki, II Avropa Oyunlarının açılış və bağlanış mərasimləri Bakıda olduğu kimi təntənəli keçirilməyəcək. Minskdə yarışla bağlı yeni heç bir idman qurğusu inşa olunmayıb, amma mövcud olanlar əsaslı təmir edilib. Belaruslar ölkələrində mövcud olan idman qurğularına uyğun olan idman növlərini proqrama daxil ediblər.

***- Minskdən sonra növbəti Avropa Oyunlarının hansı ölkədə keçiriləcəyi məlumdurmu?***

- Bu barədə AOK-un ilin axırında keçiriləcək Baş Assambleyasında müzakirələr aparılacaq. Assambleyada namizədliklə bağlı seçim elan olunacaq. Düşünürəm ki, Minsk-2019 ərəfəsində III Avropa Oyunlarının ev sahibinin adı açıqlanacaq.

***- May ayında Belqrad şəhərində AOK İcraiyyə Komitəsinin iclası və seminar keçirildi. Azərbaycan nümayəndə heyəti də bu tədbirdə iştirak edirdi.***

- AOK il ərzində keçirdiyi iki mötəbər tədbirlərdən biri may ayına planlaşdırılan seminar, digəri isə ilin sonunda təşkil edilən Baş Assambleyadır. Seminarda AOK-a üzv olan Milli Olimpiya Komitələrinin (MOK) prezidentləri olmasa da, baş katibləri mütləq iştirak edirlər. Seminarda, həm də AOK-un İcraiyyə Komitəsinin iclası keçirilirdi. İcraiyyə Komitəsinin üzvü kimi mən də tədbirdə iştirak edirdim. Tədbirdə əsasən nəzəri və texniki məsələlər müzakirə olundu, Tokio-2020, Pxençxan-2018 Olimpiya Oyunları Təşkilat Komitələrinin hesabatları dinlənildi. Azərbaycan nümayəndə heyəti də AYOF-a ev sahibliyi ilə bağlı təqdimatla çıxış etdi. İclasda, həm də AOK-un komissiyaları təsdiq olundu. MOK-un baş katibinin müavini Azər Əliyevin AYOF-un Komissiyasına üzv seçilməsi də böyük bir uğurdur.



## “AYOF-ın açılış mərasimini Kristal Zalda konsert proqramı ilə əvəz etməyi düşünürük”

***- Necə düşünürsünüz, Xuan Antonio Samarançdan sonra beynəlxalq Olimpiya Hərəkatında edilən dəyişikliklər və islahatlar işin xeyrinədirmi?***

- X.A.Samarançın Beynəlxalq Olimpiya Komitəsinə (BOK) prezidenlik dövrünü beynəlxalq Olimpiya Hərəkatının ən gözəl dövrü hesab etmək olar. Həmin dövrdə Olimpiya Oyunlarının təşkilində demək olar ki, dünyanın nəhəng dövlətləri gərgin mübarizə aparırdılar. Hər bir ölkə ev sahibliyində maraqlı idi. Jak Roqq və Tomas Baxın dövründə də islahatlar, yeniliklər oldu. Düşünürəm ki, edilən bəzi yeniliklərin nəticəsini hələ bir müddətdən sonra görəcəyik. Yəni ki, edilən dəyişikliklərə qiymət vermək hələ tezdir. Götürək, Olimpiya proqramı ilə bağlı dəyişikliyi. Bu bir qayda idi ki, yarışların proqramında 28 idman növü nümayiş etdirilirdi və idmançıların (10500), medalların da sayı buna uyğunlaşdırılırdı. Proqrama yeni idman növü daxil edildikdə, avtomatik olaraq digəri xaric edilməli idi. Təbii ki, Olimpiya proqramına yeni 5 idman növünün daxil edilməsi, əvəzində isə heç birinin çıxarılmaması zamanın tələbidir. Tokio-2020 Olimpiadasından başlayaraq idmançılar proqramda 28 deyil, 33 idman növü üzrə mübarizə aparacaqlar. Bu da istər-istəməz iştirakçıların və medalların sayının artmasına səbəb olacaq. Bir sözlə, Olimpiya proqramında aparılan islahat və edilən dəyişikliklər zamanın, dövrün tələbidir.

***- BOK mütamadi olaraq Tokio-2020 Təşkilat Komitəsinin işindən narazılığını ifadə edir. Sizcə, bu nə ilə bağlıdır?***

- Olimpiya Oyunları başlamamışdan 2-3 il əvvəl adətən, müəyyən narazılıqlar olur. Təşkilat Komitəsi büdcəyə qənaət etmək məqsədilə xərcləri azaltmağa çalışır. Bu isə BOK-un xoşuna gəlmir və ya tələblərinə cavab vermir. Yadınızdadırsa, Rio-2016 Olimpiadasında da bu cür narazılıqlar var idi, həm də ciddi şəkildə. BOK hətta yarışların təxirə salınmasını istəyirdi. Son vaxtlar təklif olunur ki, Olimpiya Oyunlarının təşkilinə əvvəlkindən fərqli olaraq daha az xərc qoyulsun. Yarışların proqramında idman növlərinin sayının artması da artıq xərc deməkdir. Təbii ki, sponsorlar müqavilə əsasında ancaq öhdəliklərinə düşəni edirlər, başqa xərclər onları maraqlandırmır. Olimpiya Oyunlarında əsas gəlir mənbələrindən biri də televiziyadır. Tamaşaçı kütləsi toplamaq asan məsələ deyil. Xeyli vaxtdır ki, televiziya tamaşaçısının sayı 2-3 milyarddan o yana keçmir. Əvəzində isə xərclər çoxdur, vəsait kifayət etmir. Mütəxəssislər xərcləri Olimpiya kəndlərinin sadələşdirilməsi hesabına azaltmağa çalışırlar. Belə bir problem də vardır ki, böyük xərc tələb edən müəyyən idman qurğuları Olimpiya Oyunlarından sonra istifadəsiz qalır. Məsələn, basketbol meydançası üçün 18.000, voleybol meydançası üçün 12.000 tamaşaçı tələb olunur. Tələblərə görə, stadion 80 min yerlik olmalıdır və s. BOK artıq xərclərə yol verməmək üçün bəzi tələbləri yumşaltmağa çalışır.

***- Paris-2024 və Los-Anceles-2028 Olimpiadalarının seçimi ilə bağlı nə deyə bilərsiniz?***

- Mövcud problemlərdən biri də namizəd şəhərlərin seçimi məsələsidir. Los-Anceles və Paris şəhərlərinə ev sahibliyinin seçimsiz verilməsi Olimpiya Oyunlarının prinsip və fəlsəfəsinin dəyişdiyini bizə deməyə əsas verir. BOK bununla vaxt udmağa, bəzi məsələləri yoluna qoymağa çalışır. Bir çox ölkələr artıq xərclərə girməmək üçün Olimpiya Oyunlarına namizədlikdən imtina edirlər. Ola bilsin ki, gələcəkdə bu yarışlar bir ölkənin bir neçə şəhərində və hətta bir neçə ölkədə keçirilə bilər. Mənim fikrimcə, bunun mənfi tərəfləri də var. Belə olan halda Olimpiya prinsiplərinə, fəlsəfəsinə və devizinə xələl gəlmiş olur. Xartiyaya görə, dünyanın bütün idmançıları “Olimpiya Oyunlarında əsas qələbə deyil, iştirakdır” devizi altında bir kənddə toplaşır, dostlaşır, bu yarışı bayram kimi qeyd edirlər. Olimpiada başqa-başqa şəhər və ölkədə keçirildiyi halda təbii ki, bu prinsiplər öz dəyərini itirəcək. Təbii ki, hər şeyi zaman göstərəcək.

***- Yeniyetmələrin Buenos-Ayres-2018 Olimpiadasında açılış və bağlanış mərasimləri stadionda deyil, meydanda keçiriləcək...***

- Sinqapur-2010 Olimpiadasında da açılış və bağlanış mərasimləri stadionda deyil, amfiteatr deyilən bir yerdə keçirildi. Bu o məqsədlə edilir ki, həm yarış iştirakçıları bayram əhval-ruhiyyəsini hiss etsinlər, həm də tədbirə çoxlu tamaşaçı baxa bilsin. Açılış mərasimində idmançılar tribuna önündən növbə ilə keçirlər və sanki burada qonaq kimi iştirak edirlər. Əslində, bu yarış idmançıların bayramıdır. Məsələn, açılış mərasimində iştirakçı ölkələrin bayraqlarını könüllülər apara bilərlər. Düşünürəm ki, oyunların açılış mərasimlərinin formatında dəyişikliklər edilməsi labüddür. Məsələn, biz gələn il ölkəmizdə keçiriləcək AYOF-ın açılış mərasimini Kristal Zalda konsert proqramı ilə əvəz etməyi düşünürük. Bununla yeniyetmə idmançılara gözəl anlar yaşatmaq istəyirik. 14-17 yaşlı məktəbli uşaqları, necə deyərlər, rəsmi tədbirlərlə yormaq nəyə lazım?

***- Yeri gəlmişkən, Yeniyetmələrin Buenos-Ayres Olimpiadasına hazırlıqla bağlı nə deyə bilərsiniz?***

- Olimpiadaya lisenziya yarışları davam edir və komanda demək olar ki, hələ tam formalaşmayıb. Düşünürəm ki, oyunların ucuzlaşdıdırlması məsələsi bu yarışlarda özünü daha qabarıq göstərəcək. Bunu indidən sübut edən səbəblər yetərincədir. Buenos-Ayres-2018 Təşkilat Komitəsinin işində qüsurlar, nöqsanlar bunu deməyə əsas verir. Yarışlar üçün çox az sayda avtobus ayrılıb, zolaqların olmaması, maşınlar üçün dayanacaqların ayrılmaması yaxşı qarşılanmır. Bundan başqa, iştirakçı ölkələrin idman nazirlərinə akkreditasiya verilməməsi də başadüşülən deyil. Yarış yerlərinin mehmanxanalardan çox uzaqda olması istər-istəməz problemlər yaradacaq. Bir də ki, yarışlara biletləri qolbağlar əvəs edəcək. Qolbağların kimə, necə və hansı tələblər əsasında veriləcəyi də hələ müəyyən deyil. İştirakçı ölkə kimi təşkilat komitəsinə iradlarımızı bildirimişik. Bundan əvvəl keçirilən Sinqapur-2010, Nankin-2014 Olimpiadalarında belə problemlər yox idi.

***- UEFA Avropa Liqasının final oyunları Bakıda keçiriləcək. Təşkilat Komitəsinin üzvü kimi nə deyərdiniz?***

- Tədbir Bakı Olimpiya Stadionunda və bir gün ərzində cəmi 2 saat çəkəcək. Finala hansı komandaların çıxmasından çox şey asılıdır. Güclü komandalar gələrsə, gələn qonaqların da sayı da çox olacaq. Yarışla bağlı heç bir problem yoxdur. Problem finala baxmağa gələn 25-50 min qonağın 3 gün ərzində yerləşdirilməsi məsələsi ilə bağlıdır. Bu məsələdə, aeroport, mehmanxana, restoran, təhlükəsizlik məsələlərinin həll edilməsi çox vacibdir. Yenə də deyirəm, yarışla bağlı elə bir problem, çətinlik yoxdur. Problem oyunun ətrafında olan, oyuna baxmağa gələn azarkeş kütləsi ilə bağlı olacaq. Təşkilat Komitəsi əsas diqqəti buna yönəldəcək. Qonaqlar hamısı birdən eyni vaxtda gəldikləri üçün müəyyən çətinliklər yarana bilər. Çox güman ki, Bakı Hava Limanında bütün kənar reyslər təxirə salınacaq və aeroport gərgin iş rejimində işləyəcək.

***- Çingiz müəllim, deyəsən, Sizi yorduq. Maraqlıdır, yorulanda necə dincəlirsiniz?***

- Əvəllər yorgun olanda kitab oxuyurdum. İndi məni rəqəmlər sakitləşdirir. Məsələn, sudoku oynayıram. krossvords həll edirəm.

***- Nədən yorulursunuz?***

- Müasir informasiya bolluğunda adamı çox şey yorur. Hərdən də mətbuatdakı bəzi yazılardan da bezirəm.

***- Televiziyaya baxırsınızmı?***

- Televiziyada əsasən, xəbərlərə və komediya janrında filmlərə baxıram.

***- Axırıncı oxuduğunuz kitab hansıdır?***

- Elmi mövzuda kitabları demək olar ki, hər gün oxuyuram. Hərdən poeziyaya da müraciət edirəm.

***- Stolunuzun üstündə müqəddəs Quran kitabı görürük...***

- Quran stolüstü kitabımdır və bu müqəddəs kitabı ərəbcədən oxuyuram. Burada əxlaq və mənəviyyatdan tutmuş hüquqa kimi çox incəliklər haqda məlumat verilib.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*



2018 FIFA WORLD CUP RUSSIA™
14 JUNE - 15 JULY



# FUTBOL

X Ü S U S İ   B U R A X I L I Ş - 2

# DÇ-2018: özünü doğrultmayan favoritlər və gözlənilməz nəticələr

## "Ev sahibləri qonaqpərvər olmadılar"

### A qrupu

**Rusiya - Səudiyyə Ərəbistanı - 5:0 (2:0)**
**Qollar:** Yuri Qazinskiy (12), Denis Çerışev (43), Artyom Dzyuba (71), Denis Çerişev (90+1), Artyom Dzyuba (90+4)
**Sarı vərəqələr:** Aleksandr Qolovin, 88 - Taisir Əl Cassim, 90
**Hakimlər:** Nestor Pitana, Xuan Pablo Belyati, Ernan Maydana (hamısı Argentina), Sandru Riççi (Braziliya)
***14 iyun. Moskva. "Lujniki" stadionu, 78011 tamaşaçı.***

Dünya çempionatı başladı. Amma gözlənilənlərin əksəriyyəti özünü doğrultmadı. Açılış matçında ev sahibi olan Rusiya Səudiyyə Ərəbistanı ilə görüşdə böyük hesablı qələbə qazandı. DÇ-yə ev sahibi kimi birbaşa qoşulan Rusiya millisi üçün Səudiyyə Ərəbistanı uyğun rəqib idi. Ruslar onlara da qalib gəlməsəydilər, başqa kimə öz güclərini göstərəcəkdilər? Ərəblərsə sanki, topla ilk dəfə idi ki, tanış olmuşdular. Yoldaşlıq görüşlərində İtaliya və Almaniya kimi güclü komandaların qapısına yol tapan Xuan Antonio Piççinin yetirmələri sanki həmin heyəti xatırlatmırdılar. Tənqidlərdən başı açılmayan Şimal qonşularımız 3 xalı 5 cavabsız topla əldə etdilər.

Məlumat üçün bildirək ki, açılış matçında Səudiyyə Ərəbistanını böyük hesabla məğlub edən Rusiya yığması 64 ildən sonra ilk dəfə bunu bacarıb. Söhbət mundialın ilk görüşündə 5 top fərqli qalibiyyətdən gedir. Belə ki, buna qədər sonuncu dəfə 1954-cü ildə Braziliya dünya çempionatının ilk oyununda Meksikanın qapısından 5 cavabsız top keçirib. Lakin həmin vaxt bu görüşlə paralel daha 5 matç oynanılıb.



## "Zədəli firon" Misirin köməyinə çata bilmədi

**Misir - Uruqvay - 0:1 (0:0)**
**Qol:** Xose Ximenez (90)
**Sarı vərəqələr:** Sam Morsi, 90 dəq; Əhməd Heqazi, 90
**Hakimlər:** Byörn Kuypers, Sander van Rukel, Ervin Zeynstra (hamısı Hollandiya)
***15 iyun. Yekaterinburq, "Sinara Arena", 27015 tamaşaçı.***

Azarkeşlərin əksəriyyəti elə bilirdilər ki, bununla da dünya çempionatının növbəti matçlarında da məhsuldarlıq qeydə alınacaq. Lakin A qrupunun digər görüşündə bu proqnozlar özünü doğrultmadı. Son ilin ən çox müzakirə obyektinə çevrilən bir ad -Məhəmməd Salah və onun təmsil etdiyi ölkə Misir diqqət mərkəzində idi. İlk və ikiqat dünya çempionu olan Uruqvayla "fironların" görüşü böyük maraq kəsb edirdi. Çempionlar Liqasının finalında Serxio Ramosun güdazına gedən Salah bu görüşə qədər sağalmağa çalışırdı. Baş məşqçi Hektor Kuper Salahı oyuna buraxmadı. Matçda misirlilər elə də pis təsir bağışlamırdı. Sadəcə bu komandaya lider lazım idi ki, həmin lider də ehtiyat oyunçular skamyasında oturub yoldaşlarının kor-təbii mübarizəsinə tamaşa edirdi. Rəqib isə qol vəziyyətlərini sağa-sola xərcləyirdi. Hər zaman "Barselona"da Messinin ayağından uğursuz çıxan topları qapıya göndərən Luis Suares nə edəcəyini bilmirdi. Komanda yoldaşı Edinson Kavani isəuzaqdan vurduğu topları məntiqi sonluğa çatdırmaqda çətinlik çəkirdi. Hamı oyunun qolsuz bərabərliklə bitəcəyini düşünürdü. Misir futbolçuları da özlərini heç-heçəyə kökləmişdi. Lakin Uruqvay əsas vaxtın son dəqiqlərində hesabı dəyişdi. Qrupdakı növbəti mərhələ şansını kifayət qədər yaxşılaşdırdı. Fironlar arxayınlığın qurbanı oldu.

Xatırladaq ki, iki dəfə dünya çempionu olan Uruqvay yığması (1930 və 1950) indiyədək 12 mundialda çıxış edib.

Misir yığması isə 1934-cü və 1990-cı illərdəki mundiallardan sonra üçüncü dəfədir dünya çempionatlarında iştirak hüququ qazanıb.







## Bəxtsizliyin qurbanı, yaxud göydən düşən 3 xal

### B qrupu

**Mərakeş - İran - 0:1 (0:0)**
**Qol:** Aziz Buhadduz, 90+4 (avtoqol)
**Hakimlər:** Cüneyt Çakır, Bahətdin Duran, Tarık Ongün (hamısı Türkiyə)
**Sarı vərəqələr:** Karim al Ahmadi, 34 - Masud Şocai, 10; Alireza Cahanbaxş, 47; Karim Ansarifard, 90
***15 iyun. Sankt-Peterburq, "Zenit Arena", 62548 tamaşaçı.***

B qrupunda yer alan iki cütlüyün ilk görüşü maraq doğururdu. İki müsəlman komandasının və iki latın mənşəli yığmanın görüşü diqqət mərkəzində idi. Mərakeş yığması İranla görüşdə lider kimi görünürdü. İran isə gizli oyunu ilə seçilirdi. Bukomandaların qarşılaşmasında kimin qalib olacağını təxmin etmək mümkün deyildi. Ən azı tərəflərin heç-heçə edəcəyini düşünmək olardı. Bu ehtimal 90-cı dəqiqəyə qədər özünü doğrultdu. Lakin bəxt amili və ehtiyatsızlıq afrikalıları məyus etdi.Baş hakimin əsas vaxta əlavə etdiyi dəqiqədə mərakeşli Aziz Bouhadduz künc zərbəsindən topu uzaqlaşdırmaq istəyərkən"Telstar"ı öz qapısına göndərdi. Bu isə Mərakeşin növbəti mərhələyə çıxmaq arzusunun üzərindən yarımçıq xətt çəkdi. İran isə nəhənglərin mübarizəsinə 3 xalla qrup lideri kimi başladı.

## Priney derbisində sülh, bəs qazanan kim oldu?

### B qrupu

**Portuqaliya - İspaniya - 3:3 (2:1)**
**Qollar:** Ronaldo, 4 (pen.), 45, 88 - Dieqo Kosta, 25, 55, Naço, 58
**Sarı vərəqələr:** Serxio Bustkes, 17 - Bruno Fernandeş,28
**Hakimlər:** Canluka Rokki, Elenito di Liberatore, Mauro Tonolini (hamısı İtaliya)
***15 iyun. Soçi, "Fişt" stadionu, 43866 tamaşaçı***

İranın qələbəsindən sonra azarkeşlər Pireney derbisinin şahidi oldular. Portiqaliya və İspaniya yığmaları arasında görüş DÇ-nin ən maraqlı matçı oldu.

Ronaldu və onun komanda yoldaşları "Qırmızı furya"nın müqavimətini sınaqdan keçirməyə çalışdılar. Portuqaliyanın lideri bu matçda sübut etdi ki, o əsl ulduzdur. Onunla rəqabət aparmaq mümkün deyil. Bunu futboldan azacıq anlayışı olanlarda, dünya şöhrətli mütəxəssilərdə təsdiq edə bilərlər. 8 il əvvəl dünya kubokunu başları üzərinə qaldıran "toredorlar" bu derbidə dünya çempionatına layiq bir oyun nümayiş etdirdilər. Öz aqressivliyi ilə tamaşaçı antipatiyası qazanan Dieqo Kosta isə komandası üçün "can qoydu". Yekunda hər şey oyuna görə oldu. Tərəflər bol qollu matçdan cəmi bir xalla ayrıldılar. İran isə qələbə sayəsində ilk dövrədə qrupun favoritlərinə yuxarıdan aşağı baxırdı.

Xatırladaq ki, Kriştianu Ronaldo 2006-cı, 2010-cu və 2014-cü illərdə iştirak etdiyi üç mundialın hər birində bir dəfə fərqlənə bilib. Portuqaliyalı forvard əvvəlki üç dünya çempionatında göstərdiyi nəticəyə DÇ-2018-də ilk oyunda nail olub.

Qeyd edək ki, 2010-cu ildə dünya çempionatının qalibi olan İspaniya yığması 15-ci dəfədir mundialda çıxış edir.

İndiyədək altı dəfə dünya çempionatına qatılan Portuqaliya yığması isə 1966-cı ildə üçüncü, 2006-cı ildə isə dördüncü yeri tutub. 1966-cı ildəki mundialda Portuqaliya futbolunun əfsanəsi Eysebio 9 qolla bombardir olub. Bu yığmalar dünya çempionatının tarixində indiyədək beş dəfə qarşılaşıblar. Onların dördündə İspaniya milli komandası qalib gəlib.

## "VAR olsun təzə sistem"

### C qrupu

**Fransa - Avstraliya - 2:1 (0:0)**
**Qollar:** Antuan Qrizmann, 58 (pen); Aziz Behiç, 81 (avtoqol) - Mayl Yedinak, 62 (pen)
**Sarı vərəqələr:** Korentin Tolisso, 76 - Metyu Leki, 13; Coş Risdon, 57; Aziz Behiç, 87
**Hakimlər:** Andres Kunya, Nikolas Taran, Maurisio Espinoza (hamısı Uruqvay)
***16 iyun. Kazan, "Kazan Arena", 41279 tamaşaçı***

DÇ-2018-in aşkar favoritlərindən biri olan Fransa millisi qrupdakı ilk görüşü qələbə ilə başa vurmağa çalışırdı. Heyətdəki ulduz futbolçular da bunun üçün əlindən gələni əsirgəmirdi. Amma çempionatın qeyri-məhsuldar keçməsi öz sözünü deyirdi. Axı bu çempionat sıradan bir yarış, iştirakçılar isə təsadüfi deyildi. Yaşıl qitəni təmsil edən Avstraliya millisi hər bir mövqedə ehtiyatlı oynamağa çalışırdı. İlk hissədə qolsuz bərabərlik matça olan marağı bir qədər azaltmışdı. Lakin DÇ tarixində ilk dəfə tətbiq olunan "Qoal-layn" (VAR) sisteminin köməyi ilə matçın ikinci hissəsi məhsuldar oldu. Tərəflər hərəyə bir dəfə onbirmetrlik cərimə zərbələri ilə fərqlənə bildilər. Oyunun taleyi də elə yeni sistemin hesabına həll oldu. Pol Poqbanın vurduğu top "üçrənglilərə" qələbə qazandırdı. Lakin matçdan bir neçə gün sonra həmin qol yenidən yoxlanıldı. Məlum oldu ki, həmin top Poqbanın deyil, avstraliyalı futbolçu Aziz Behiçin ayağına dəyib, çərçivədən keçib. Hər halda Fransa millisi yeni sistemə minnətdar olmalıdır.

Qeyd edək 1930-cu ildə ilk dünya çempionatında iştirak edən dörd Avropa təmsilçisindən biri olan Fransa yığması indiyədək 14 dəfə mundiallarda yer alıb. Dünya çempionu adını qazanan (1998) səkkiz komandadan biri olan Fransa millisi 2006-cı ildə finalda İtaliyaya uduzub. Komanda 1958-ci və 1986-cı illərdə çempionatların bürünc medallarına layiq görülüb. 1958-ci ildə Fransa millisinin hücumçusu Jüst Fonten 13 qolla çempionatın bombardiri olub. O, bir çempionatda ən çox qol vuran futbolçu rekordunu bu günədək özündə saxlayır.

Avstraliya yığması isə bundan əvvəl dörd dəfə - 1974-cü, 2006-cı, 2010-cu və 2014-cü illərdə mundialda çıxış etmək hüququ qazanıb. Altıncı qitə təmsilçisinin ən yaxşı göstəricisi 2006-cı ildə Almaniyadakı dünya çempionatına təsadüf edib. Avstraliyalılar həmin vaxt qrup ikincisi kimi 1/8 finala yüksəlsələr də, İtaliya millisi onların yolunu kəsib - 0:1.

*(ardı 5-ci səhifədə)*




# Dünya çempionatında hansı komandaya azarkeşlik edirlər?

Xəbər verdiyimiz kimi, Rusiyada futbol üzrə XXI dünya çempionatı keçirilir. Bütün dünyada olduğu kimi, ölkəmizdə də dünya çempionatına maraq böyükdür. "Olimpiya dünyası" qəzeti idman ictimaiyyətinin nümayəndələri, Olimpiya çempionları arasında DÇ-2018-lə bağlı sorğu keçirib. Maraqlıdır, bəs görəsən idman rəsmilərinin dünya çempionatı ilə bağlı fikirləri necədir? Onlar bu yarışda hansı komandanı favorit hesab edib, hansı milliyə azarkeşlik edirlər? Keçirdiyimiz sorğuda bu suallara aydınlıq gətirdik. Həmin sorğunu oxucularımıza təqdim edirik.

## "Məhəmməd Salaha görə Misir yığmasına azarkeşlik edirəm"

***Çingiz Hüseynzadə (Milli Olimpiya Komitəsinin vitse-prezidenti)***

- Futbolu çox sevirəm. Gəncliyimdə həyatımı futbolsuz təsəvvür etmirdim. Düzünü deyim ki, son illərdə hansısa bir komandaya azarkeşlik etmirəm. Futbolda da çox şeylər dəyişib. Ötənilki dünya çempionatında Braziliya Almaniya oyununda hesabın 1:7 hesabı ilə almanların xeyrinə başa çatması ağlasığmaz bir şey idi. İndi futbolda oyunun taleyini ayrı-ayrı oyunçular həll edir. Komanda ruhu yox olub elə bil. Sevdiyim, oyununu bəyəndiyim futbolçular barmaqla sayıla biləcək qədərdir. Bunlar potruqaliyalı Kriştanu Ronaldo, argentinalı Lionel Messi, misirli Məhəmməd Salahdır. Bilirsiniz, Peleni Eysebio ilə müqayisə edəndə nə deyib? Deyib ki: "Eysebio gözəl oyunçu idi. Amma o futbolçunu bir nömrəli oyunçu hesab edirəm ki, öz milli komandasını dünya çempionu etməyi bacarıb". Pele, Maradona öz ölkəsini dünya çempionu edən bilən əfsanəvi futbolçulardır. Çox təəssüf ki, Messi 3-cü dəfədir ki, Argentina millisini çempion edə bilmir. Bekkenbauer Almaniyanı dünya çempionu, Çarter qardaşları isə İngiltərəni çempion etmişdilər. Kriştianu Ronaldo əsl futbolçu olduğunu Avropa çempionatında sübut etdi. O futbolçulara azarkeşlik edirəm ki, onlar həm klubda, həm də millidə fərqlənə bilsinlər. Portuqaliya komandası həmişə sevimli komandam olub. Yohan Kruifin vaxtından Hollandiya komandasına rəğbətim var idi. Fransızların oyununa isə heç vaxt azarkeşlik etməmişəm. Amma Zidana görə Fransa yığmasının oyununu izləmişəm. Bir sözlə, milliyə oyunçuya görə azarkeşlik edirəm. Bu dəfə məhz Məhəmməd Salaha görə Misir yığmasına azarkeşlik edirəm.



## "Çox istəyərdim ki, dünya çempionatının qalibi İngiltərə millisi olsun"

***Ağacan Abıyev (Milli Olimpiya Komitəsinin baş katibi)***

- Əvvəlcə hər bir azarkeşi futbol bayramı münasibəti ilə təbrik edirəm. Futbol hər zaman dünyada öz populyarlığını qoruyub saxlayıb. Milyardlarla azarkeş bu futbol bayramını çoxdandır ki, həsrətlə gözləyirdi. Təbii ki, mən də öz növbəmdə dünya çempionatının oyunlarını maraqla izləyirəm. Futbol deyəndə ağıla ilk olaraq futbolun yaradıcıları olan ingilislər gəlir. Bu gün dünyada 4-5 ölkə var ki, dünya və Avropa çempionatlarında sözün əsl mənasında hegemonluq edirlər. Mən çox istəyərdim ki, builki dünya çempionatının qalibi İngiltərə millisi olsun. Bu komandaya uzun illərdir ki, azarkeşlik edirəm. İngiltərə, Braziliya və Almaniya yığmalarını dünya çempionatının favoriti hesab edirəm. Fikrimcə, ilk üçlükdə elə bu komandalar yer alacaqlar.



## "Dünya çempionatlarında Braziliya komandasına azarkeşlik edirəm"

***Xəzər İsayev (Milli Olimpiya Komitəsinin vitse-prezidenti)***

- Dünya çempionatında ən güclü ölkələrin komandaları iştirak edirlər. Onlar bu yarışlara müntəzəm hazırlaşırlar. Hamı çempionluq uğrunda mübarizə aparır. Almaniya, Braziliya, İngiltərə, Argentina, Belçika favorit komandalardı. Xorvatiya və İspaniya millilərinin oyunlarını çox bəyənirəm. Amma bu komandaların arasında əsas favoritim Braziliyadı. Hər zaman dünya çempionatlarında Braziliya komandasına azarkeşlik edirəm. "Sambaçı"ların taktikası, texnikası, oyun üslubu, mübarizə əzmi, vurduğu qolların gözəlliyi onların hər zaman lider komanda kimi irəlidə olmasına gətirib çıxarır.



## "Dünya çempionatını Hollandiya və İtaliyasız təsəvvür etmək çox çətindir"

***Fərid Mansurov (Gənclər və İdman Nazirliyinin idman şöbəsinin rəisi)***

- Uşaqlıqdan eşidirik ki, braziliyalılar güclü futbol oynayır. Bununla bağlı olaraq da istər-istəməz o millliyə simpatiyam var. Bu komandanın oyunlarını hər zaman böyük həvəslə izləyirəm. Fikrimcə, Braziliya ilə yanaşı, Fransa və Almaniya millilərinin də çempion olmaq şansı böyükdür. Düşünürəm ki, elə bu üç komanda çempionluğa əsas namizəddirlər. Lakin etiraf edim ki, dünya çempionatını Hollandiya və İtaliyasız da təsəvvür etmək çox çətindir.



## "Əgər İngiltərə dünya çempionu olarsa, Azərbaycan yada düşəcək"

***Raqif Abbasov (Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi)***

- Futbol bütün dünyada sevilən ən məşhur idman növlərindən biridir. Futbolun bəzəyi isə dünya, Avropa çempionatları və Çempionlar liqası yarışlarıdır. Təbii ki, mən hər zaman Azərbaycan millisinə azarkeşlik edirəm. Yığma komandamızın nəticələrindən asılı olmayaraq bu həmişə belə olacaq. Azərbaycan millisindən sonra azarkeşlik etdiyim ikinci komanda Türkiyə yığmasıdır. Təəssüf ki, Türkiyə millisi dünya çempionatına vəsiqə qazana bilmədi. Üçüncü azarkeşlik etdiyim komanda İngiltərə millisidir. Böyük Britaniya komandasına azarkeşlik etməyimin müəyyən səbəbləri var. Əgər İngiltərə dünya çempionu olarsa, Azərbaycan yada düşəcək. Tofiq Bəhramovun adı hallanacaq. Məhz elə buna görə də İngiltərə yığmasına azarkeşlik edirəm. Əgər hər hansısa bir komanda dünya çempionu olandan sonra Azərbaycan adı hallanacaqsa, ölkəmiz yada düşəcəksə, həmin komandaya azarkeşlik etmək məncə, qəbahət deyil. Deyə bilmərəm İngiltərənin çempionluq şansları necədir. Lakin çox istəyirəm ki, dünya çempionatının qalibi İngiltərə millisi olsun.



## "Mən gözəl oyuna azarkeşlik edirəm"

***Kazbek Tuayev (Veteran futbolçu)***

- Dünya çempionatının başlamasını, hamı kimi mən də səbirsizliklə gözləyirdim. Demək olar ki, maraqlı oyunlar izləyirik. Hər bir oyun çox gərgin mübarizə şəraitində keçir. Bir neçə komanda var ki, sensasiyaya nail olublar. Rusiya millisi bu yarışın ev sahibidir. Onlar doğma azarkeşlər önündə oynayırlar. Bu onlar üçün əlavə stimuldur. Baxmayaraq ki, Rusiya millisi artıq 1/8 finala vəsiqəni təmin edib, amma bu o demək deyli ki, ruslar bu mundialda daha çox irəliləyə bilərlər. Sadəcə olaraq, Rusiya millisinin yer aldığı qrup digərləri ilə müqayisədə zəif idi. Bu da onların asanlıqla qrup lideri olmasına şans yaratdı. Düzünü desəm, mənim dünya çempionatında aşkar favoritim yoxdur. Mən gözəl oyuna azarkeşlik edirəm. İnanıram ki, çempionatının digər oyunları da maraqlı mübarizə şəraitində keçəcək.



## "Fransa və Almaniya milliləri çempionluğa əsas namizəddirlər"

***Elnur Məmmədli (Olimpiya çempionu)***

- Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatına bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da maraq çox böyükdür. Hamı bu mötəbər idman bayramının başlamasını gözləyirdi. Futbolla maraqlananlar isə artıq favoritlərini, çempionluğa namizəd komandalarını müəyyənləşdiriblər. Düşünürəm ki, Fransa və Almaniya milliləri çempionluğa əsas namizəddirlər. Fransanın son illərdə oynadığı futbol hamıya yaxşı məlumdur. Bu komandanın çox geniş heyəti var. Bu millinin futbolçuları Avropanın aparıcı klublarında çıxış edirlər. Almaniya isə, mən deyərdim ki, "futbol maşını"dır. Əminəm ki, əgər finalda bu iki komanda qarşılaşarsa, çox çətin və maraqlı oyun keçəcək. Amma mən İspaniya yığmasına azarkeşlik edirəm. Çox istərdim ki, ispanlar 2010-cu ildə olduğu kimi, bu il də dünya kubokuna sahib çıxsınlar".



# DÇ-2018: özünü doğrultmayan favoritlər və gözlənilməz nəticələr

(əvvəli 4-cü səhifədə)

## 5-ci cəhddə avropalılar təşəbbüsü əldən vermədilər

**Peru - Danimarka - 0:1 (0:0)**
**Qol:** Yusuf Poulsen, 59
**Sarı vərəqələr:** Renato Tapiya, 38 - Tomas Delani, 86; Yusuf Poulsen, 90
**Hakimlər:** Bakari Qassama (Qambiya), Jan-Klod Birumuşahu (Burundi), Abdelhak Etçiali, Mehdi Abid Şaref (hər ikisi Əlcəzair), Anuar Hmila (Tunis)
***16 iyun. Saransk, "Yubileyni" stadionu, 40502 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Fransa* | 1 | 1 | 0 | 0 | 2-1 | 3 |
| *2. Danimarka* | 1 | 1 | 0 | 0 | 1-0 | 3 |
| *3. Avstraliya* | 1 | 0 | 0 | 1 | 1-2 | 0 |
| *4. Peru* | 1 | 0 | 0 | 1 | 0-1 | 0 |

Çempionatın üçüncü gününün üçüncü oyununda "C" qrupunda yer alan Peru və Danimirka milliləri qarşılaşıblar. Bu matç dünya çempionatına yaraşmayan, sözün əsl mənasında ən maraqsız görüşlərdən biri kimi diqqəti çəkdi. Oyunun ilk hissəsində qapılara top vurulmayıb. Bir saatın tamamında Kristian Eriksenin ötürməsini Yussuf Poulsen baxımlı qolla tamamlayıb. Bu, oyunda vurulan yeganə qol olub. Beləliklə, Danimarka millisi 1:0 hesabı ilə qalib gələrək vacib 3 xal qazanıb.

Dünya futbol tarixində ilk dəfə üz-üzə gələn bu komandalar mundiala play-off mərhələsinin qalibi olaraq vəsiqə qazanıblar. 36 illik fasilədən sonra yenidən dünya çempionatına vəsiqə qazanan Peru yığması və Danimarka millisi üçün beşinci mundialdır. Hər iki komanda dünya çempionatlarında indiyədək yalnız 1/4 final mərhələsinədək irəliləyə bilib.



## Qəhrəman rejissor Aqueronun ssenarisini dəyişdi

### D qrupu

**Argentina - İslandiya - 1:1 (1:1)**
**Qollar:** Serxio Aquero, 19 - Alfred Finnboqason, 23
**Hakimlər:** Şimon Marçinyak, Pavel Sokolniçki, Tomaş Listkeviç (hamısı Polşa), Vilmar Roldan, Aleksander Quzman (hər ikisi Kolumbiya)
***16 iyun. Moskva, "Spartak" stadionu, 44190 tamaşaçı***

Cənubi Amerika qitəsinin daha bir təmsilçisi Argentina İslandiya yığması ilə qarşılaşıb. D qrupunda yer alan komandaların oyununda qalib müəyyənləşməyib. Oyuna fəal başlayan cənubi amerikalılar matçın 19-cu dəqiqəsində hesabı açıb. Topu rəqib qapısından Serxio Aquero keçirib. Bundan dörd dəqiqə sonra Alfred Finnboqasson Argentina millisinin qapısı qarşısında yaranmış qarışıqlıqdan istifadə edərək hesabı bərabərləşdirib. Komandaların cəhdlərinə baxmayaraq ilk hissənin sonunadək hesab dəyişməyib.

Oyunun ikinci hissəsində Lionel Messi İslandiyanın qapısına təyin olunmuş 11 metrlik zərbədən yararlana bilməyib. Maraqlıdır ki, cərimə zərbələrini sərrast icra edən Messi bu imkanı əldən verib. Görünür, mühasiblərdən, bərbərlərdən, rejissorlardan hətta poçt işçilərindən ibarət ada təmsilçiləri qarşıdakı görüşlərdə digər komandalara da eyni aqibəti yaşatmaq əzmindədir. Biz bunu ötən Avropa çempionatında açıq-aşkar gördük. Yeri gəlmişkən İslandiyanın bərabərlik qolunu vuran Finboqasson ölkəsində kino rejissoru işləyir. Skadinaviyalı futbolçunun çəkdiyi bu film hələ çox müzakirə olunacaq. Beləliklə, Argentina millisi dünya çempionatına xal itkisi ilə başladı. Yarışın favoritlərindən birinin xal itkisi mundialın ilk sensasiyası sayılıb.



## Modriç 2400-cü qolun müəllifidir

**Xorvatiya - Nigeriya - 2:0 (1:0)**
**Qollar:** Oqenekaro Etebo, 23 (avtoqol), Luka Modriç, 71 (pen.)
**Sarı vərəqələr:** İvan Rakitiç, 30; Marselo Brozoviç, 89 - Uilyam Trost-Ekonq, 70
**Hakimlər:** Sandro Riççi, Emerson de Karvalyo, Marselo van Qasse (hamısı Braziliya), Antonio Maryö Lahoz, Pau Sebrian Devis (hər ikisi İspaniya)
***16 iyun. Kaliningrad, "Baltika Arena", 31136 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Xorvatiya* | 1 | 1 | 0 | 0 | 2-0 | 3 |
| *2. Argentina* | 1 | 0 | 1 | 0 | 1-1 | 1 |
| *3. Islandiya* | 1 | 0 | 1 | 0 | 1-1 | 1 |
| *4. Nigeriya* | 1 | 0 | 0 | 1 | 0-2 | 0 |

Çempionatın üçüncü gününün sonuncu oyununda D qrupunda yer alan Xorvatiya və Nigeriya milliləri qarşılaşıblar. Oyunda hesab 32-ci dəqiqədə açılıb. Nigeriya millisinin üzvü Oqenekaro Etebo avtoqolla yadda qalıb. İkinci hissənin 70-ci dəqiqəsində Uilyam Ekonqun kobud oyununa görə, Nigeriya millisinin qapısına onbirmetrlik cərimə zərəbəsi təyin edilib. Cərimə zərbəsini dəqiq yerinə yetirən Luka Modriç hesab arasındakı fərqi artırıb. Bu qol dünya çempionatları tarixində 2400-cü qol olub.

Komandaların cəhdlərinə baxmayaraq oyunun sonunadək hesab dəyişməyib. Beləliklə, Xorvatiya millisi vacib 3 xalı 2:0 hesablı qələbə ilə əldə edib.

## Bir zərbədən milyonlar böyük zövq aldı

### E qrupu

**Kosta-Rika - Serbiya - 0:1 (0:0)**
**Qol:** Aleksandr Kolarov, 56;
**Sarı vərəqələr:** Fransisko Kalvo, 22; David Qusman, 56 - Branislav İvanoviç, 59; Aleksandr Priyoviç, 90
**Hakimlər:** Malanq Diedhiu, Cibril Kamara, El Hac Samba (hamısı Seneqal), Bamlak Veyesa (Efiopiya)
***17 iyun. Samara. "Kosmos Arena", 41432 tamaşaçı***

(ardı 6-cı səhifədə)




# DÇ-2018: özünü doğrultmayan favoritlər və gözlənilməz nəticələr

(əvvəli 5-ci səhifədə)

Dünya çempionatının 4-cü gününə Kosta-Rika və Serbiya millilərinin oyunu ilə start verilib. Maraqlı mübarizə şəraitində keçən oyunda Avropa təmsilçisi minimal hesabla qalib gəlib. Serbiyalılara qələbəni komandanın kapitanı Aleksandr Kolarovun cərimə zərbəsindən vurduğu möhtəşəm qol qazandırıb.

## Meksika bibəri almanlar üçün çox acı oldu

*F qrupu*

**Almaniya - Meksika - 0:1 (0:1)**
**Qol:** İrvinq Losano, 35
**Sarı vərəqələr:** Tomas Müller, 83; Mats Hummels, 84 - Hektor Moreno, 40; Hektor Herera, 90
**Hakimlər:** Alireza Faqani, Reza Suhandan, Mohammedreza Mansuri (hamısı İran), Mohammed Mohammed (BƏƏ)
***17 iyun. Moskva. “Lujniki” stadionu, 78011 tamaşaçı***



Günün ikinci oyunu isə isə sensasiya ilə nəticələnib. Son dünya çempionatının finalçısı Argentinanın ardından çempion da büdrəyib. Cənubi amerikalılar əgər İslandiya ilə heç-heçə etmişdisə, Almaniya millisi Meksika ilə görüşdən xalsız ayrılıb. Meksika komandası bu qələbəni 1 qolla əldə edib. Görünür “Alman maşını”nın çarxları “korşalıb”. Sane kimi futbolçunu DÇ-yə gətirməyən Löv “sadəlövhlük” göstərib. Əgər nəticə qənaətbəxş olmasa məğlubiyyəti həzm edə bilməyən almanlar baş məşqçini bağışlamayacaq.

Qeyd edək ki, bu, komandaların dünya çempionatları çərçivəsində ikinci qarşılaşmasıdır. İyirmi il əvvəl - 1998-ci ildə səkkizdəbir final mərhələsindəki birinci oyunda Almaniya millisi meksikalılara 2:1 hesabı ilə qalib gəlmişdi.

## DÇ-də “samba” deyil, futbol oynamaq lazımdır

*E qrupu*

**Braziliya - İsveçrə - 1:1 (1:0)**
**Qollar:** Koutinyo, 20 - Suber, 50
**Sarı vərəqələr:** Kazemiro, 47 - Ştefan Lixtştayner, 31; Fabian Şer, 65; Valon Behrami, 68
**Hakimlər:** Sezar Ramos, Malvin Torrentera, Migel Ernandes (hamısı Meksika), Con Pitti (Panama)
***17 iyun. Rostov. “Levberdon Arena”, 43109 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Serbiya | 1 | 1 | 0 | 0 | 1-0 | 3 |
| 2. Braziliya | 1 | 0 | 1 | 0 | 1-1 | 1 |
| 3. İsveçrə | 1 | 0 | 1 | 0 | 1-1 | 1 |
| 4. Kosta-Rika | 1 | 0 | 0 | 1 | 0-1 | 0 |

Braziliya da Almaniya və Argentina kimi mundiala qələbəsiz başlayıb. Cənubi Amerika təmsilçisi “Levberdon Arena”da İsveçrəni sınağa çəkib. Pentakampeonlar oyunun birinci hissəsində hesabı açsa da, fasilədən sonra üstünlüyü əldən verib.

Qeyd edək ki, bu komandalar dünya çempionatlarında ilk dəfə 1950-ci ildə təşkil olunan mundialın qrup mərhələsində qarşılaşıblar. Həmin oyunda 2:2 hesablı heç-heçə qeydə alınıb.

Braziliya millisi ən çox dünya çempionu olan komandadır. “Sambaçı”lar bu kuboku 5 dəfə başları üzərinə qaldırıblar.

İsveçrəlilərin dünya çempionatlarında debütü 1934-cü ildə olub. Onlar mundialda on birinci dəfədir iştirak edirlər və ən yaxşı nəticəni 1934-cü, 1938-ci və 1954-cü illərdə göstərərək 1/4 final mərhələsinə vəsiqə qazanıblar.

## Avropalılar asiyalılara güzəştə getmir

*F qrupu*

***İsveç - Cənubi Koreya - 1:0 (0:0)***
**Qol:** Andres Qrankvist, 65 (pen.)
**Sarı vərəqələr:** Viktot Klasson, 61 - Şin Uk Kim, 13; Hvan Hi Çan, 55
**Hakimlər:** Xoel Aqilar, Xuan Zumba (hər ikisi Salvador), Xuan Karlos Mora (Kosta-Rika), Norbert Xauata (Taiti)
***18 iyun. Nijniy Novqorod. “Volqa Arena”, 42300 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Meksika | 1 | 1 | 0 | 0 | 1-0 | 3 |
| 2. İsveç | 0 | 0 | 0 | 0 | 0-0 | 0 |
| 3. Cənubi Koreya | 0 | 0 | 0 | 0 | 0-0 | 0 |
| 4. Almaniya | 1 | 0 | 0 | 1 | 0-1 | 0 |

Çempionatın 5-ci oyun günündə 3 qarşılaşma təşkil olunub.

F qrupunda ilk tura yekun vurulub. Almaniya və Meksikanın qrupunda yer alan İsveç millisi Cənubi Koreya ilə üz-üzə gəlib. Matçın taleyini 1 qol həll edib. Oyunun 65-ci dəqiqəsində çempionatda ikinci dəfə olaraq videonəzarət sistemindən (VAR) istifadə edilib. Beləliklə, Andreas Qranqvistin penaltidən vurduğu yeganə top İsveçə 3 xal qazandırıb.

Qeyd edək ki, bu komandalar beynəlxalq turnirlərdə 1948-ci il Yay Olimpiya Oyunlarında üz-üzə gəliblər. Həmin görüşdə İsveç 12:0 hesabı ilə qələbə qazanıb. Son illərdə keçirilən üç yoldaşlıq görüşünün birində isveçlilər qalib gəlib, iki oyun heç-heçə yekunlaşıb.

## Favrotilərdən biri ilk görüşdə büdrəmədi

*G qrupu*

**Belçika - Panama - 3:0 (0:0)**
**Qollar:** Dris Mertens, 47; Romelu Lukaku, 69, 75
**Sarı vərəqələr:** Tomas Meunier, 14; Yan Vertongen, 59; Kevin De Bruyne, 88 - Erik Deyvis, 18; Edqar Barsenas, 45+2; Armando Kuper, 49; Mikael Murilyo, 51; Anibal Qodoy, 57
**Hakimlər:** Canni Sikazu (Zambiya), Jerson dos Santos (Anqola), Zaxele Sivela (CAR), Ryudzi Sato (Yaponiya)
***18 iyun. Soçi. “Fişt” stadionu, 43257 tamaşaçı***

G qrupunda da azarkeşlər maraqlı oyunun şahidi olublar. Əvvəlcə meydana Belçika və Panama yığmaları çıxıb. Turnirin favoritlərindən sayılan belçikalılar rəqibini asanlıqla məğlub edib - 3:0. Qeyd edək ki, mundialın ən bahalı futbolçulardan ibarət milli komandalarından olan Belçika yığması doqquz dəfə dünya çempionatında iştirak etmək hüququ qazanıb. Belçikalıların dünya çempionatlarında ən yaxşı göstəricisi 1986-cı ildə bürünc mükafat qazanması olub. Panama yığması isə tarixində ilk dəfə mundialda mübarizə aparır.

## İngilislər qələbə üçün son anı gözlədilər

*G qrupu*

**Tunis - İngiltərə - 1:2 (1:1)**
**Qollar:** Fercani Sassi, 35 (pen.) - Harri Keyn, 11, 90+1
**Sarı vərəqə:** Kayl Uolker, 33
**Hakimlər:** Vilmar Roldan, Aleksander Quzman, Kristian de la Kruz (hamısı Kolumbiya), Rikardo Montero (Kosta-Rika)
***18 iyun. Volqoqrad. “Sentral” stadionu, 41064 tamaşaçı***

Günün son qarşılaşmasında isə futbolun yaradıcıları mundial həyəcanına başlayıb. İngiltərənin rəqibi Tunis olub. Kapitan Hari Keynin dublu ingilislərə çətin qələbə qazandırıb. Matçın müqəddəratı yenə də oyunun son saniyələrində həll olundu.

Qeyd edək ki, bu komandalar dünya çempionatlarında bir dəfə qarşılaşıblar. 1998-ci ildə Fransada keçirilən qrup matçında ingilislər 2:0 hesabı ilə qalib gəliblər.

İndiyədək 14 dəfə mundiallarda iştirak edən “Dumanlı Albion” təmsilçisi 1966-cı ildə ev sahibliyi etdiyi səkkizinci dünya çempionatının finalında Almaniya yığmasına 4:2 hesabı ilə qalib gələrək çempion olub.



İngiltərə yığması mundialda yeganə komandadır ki, heyətindəki futbolçuların hamısı ölkə çempionatında - Premyer Liqada çıxış edir.



*H qrupu*

**Kolumbiya - Yaponiya - 1:2**
**Qollar:** Xuan Kintero, 39 - Sindzi Kaqava, 6 (pen.); Yuya Osako, 73
**Sarı vərəqələr:** Vilmar Barrios, 64; Hames Rodriges, 86 - Eyi Kavasima, 90+4
**Qırmızı vərəqə:** Karlos Sançes, 3
**Hakimlər:** Damir Skomina, Yure Paprotnik, Robert Vukan (hamısı Sloveniya), Mehdi Abid Şarif (Əlcəzair)
***19 iyun. Saransk, “Yubileyni” stadionu, 40842 tamaşaçı***

Çempionatın altıncı gününə H qrupunda yer alan Kolumbiya ilə Yaponiya milliləri qarşılaşıb. Matçın ilk dəqiqələrində bir nəfər azlıqda qalan “qəhvəçilər” oyunun ssenarisini dəyişə bilməyiblər. Heyətində ulduz futbolçuları olan Cənubi Amerika təmsilçisi buna rəğmən asiyalılar qarşısında aciz qalıb - 1:2.

Qeyd edək ki, bu komandaların ilk görüşü 2014-cü ildə Braziliyadakı mundiala təsadüf edib. Həmin çempionatda C qrupunda mübarizə aparan hər iki komandanın görüşündə kolumbiyalılar 4:1 hesabı ilə qalib gəlmişdilər.

## Aristokrat “panlar” “Teranqa aslanları” ilə bacarmadı

*H qrupu*

**Polşa - Seneqal - 1:2 (0:1)**
**Qollar:** Krixkovyak, 86 - Sionek, 38 (avtoqol), Mbaye Nianq, 60
**Sarı vərəqələr:** Qreqorş Krixkovyak, 12 - Salif Sane, 49; İdrissa Qana Queyye, 72
**Hakimlər:** Navaf Şükrülla, Yasir Tulefat (hər ikisi Bəhreyn), Tolib əl-Marri, Abdulrahman əl-Cassim (hər ikisi Qətər)
***19 iyun. Moskva, “Spartak” stadionu, 44190 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Seneqal | 1 | 1 | 0 | 0 | 2:1 | 3 |
| 2. Yaponiya | 1 | 1 | 0 | 0 | 2:1 | 3 |
| 3. Polşa | 1 | 0 | 0 | 1 | 1:2 | 0 |
| 4. Kolumbiya | 1 | 0 | 0 | 1 | 1:2 | 0 |

H qrupunda ilk tura Polşa - Seneqal qarşılaşması ilə yekun vurulub. Bu oyunda da eyni hesab qeydə alınıb - 1:2. Afrikalılar oyunun favoriti olan Polşa millisinə qalib gəlib.

Qeyd edək ki, Polşa millisi yeddi dəfə mundiallarda iştirak hüququ qazanıb. Polşalılar dünya çempionatlarının ikiqat bürünc mükafatçılarıdır (1974, 1982). “Ağ-qırmızılar”ın əsas qol silahı sayılan Robert Levandovski 91 qolla ən çox fərqlənən oyunçu kimi milli komandanın tarixinə düşüb.

Seneqal millisinin dünya çempionatlarının final mərhələsi ilə tanışlığı 2002-ci ildə olub. Afrika təmsilçisinin ən uğurlu çıxışı da məhz həmin çempionatda olub. Həmin mundialın açılış matçında dünya çempionu Fransanı məğlubiyyətə uğradan və 1/4 finaladək irəliləyən Seneqal yığmasının qarşısını Türkiyə millisi kəsib.

## Salah DÇ-2018-də tək, komandası isə qrupda qaldı

*A qrupu*

*II tur*

**Rusiya - Misir - 3:1 (0:0)**
**Qol:** Ahmet Fathi, 47 (avtoqol), Çerışev, 59, Zyuba, 62 - Salah, 72 (pen.)
**Sarı vərəqələr:** Feder Smolov, 84 - Trezege, 57
**Hakimlər:** Enrike Kaseres, Eduardo Kardoso, Xuan Zorrilla (hamısı Paraqvay), Cüneyt Çakır (Türkiyə)
***19 iyun. Sankt-Peterburq, “Zenit Arena”, 64468 tamaşaçı***

Günün son oyununda II turun ilk görüşü oynanılıb. A qrupunun açılış matçında Səudiyyə Ərəbistanını darmadağın edən Rusiyanın ilk ciddi sınağı Misirə qarşı olub. Məhəmməd Salahın yoxluğunda Uruqvaya məğlub olan Misir yığması Salahın varlığında da qələbə qazana bilməyib. Şimal qonşularımız görüşdə 3:1 hesabı ilə qələbə qazanaraq 1/8 finala bir addım da yaxınlaşıblar.

*Xüsusi buraxılışı hazırladılar:*
*Anar Əhmədov,*
*Azər Əlizadə*

## Klublarımızın UEFA Avropa Liqasındakı rəqibləri müəyyənləşdi

2018/2019-cu il mövsümündə ölkəmizi UEFA Avropa Liqasında təmsil edəcək klublarımızın rəqibləri müəyyənləşib.

Mübarizəyə birinci təsnifat mərhələsindən başlayacaq təmsilçilərimizdən "Keşlə" Maltanın "Baltsan", "Qəbələ" Lüksemburqun "Proqres", "Neftçi" isə Macarıstanın "Uypeşt" komandası ilə qarşılaşacaq.

Bu mərhələnin oyunları iyulun 12-də və iyulun 19-da keçiriləcək.

UEFA Avropa Liqasında II təsnifat mərhələsində isə daha 27 komanda turnirdə mübarizəyə başlayacaq.

Azərbaycanı bu turnirdə təmsil edəcək "Qəbələ", "Neftçi" və "Keşlə"nin I mərhələni itkisiz başa vuracaqları təqdirdə, qarşılaşacaqları potensial rəqiblər müəyyənləşib.

Azərbaycan çempionatının gümüş mükafatçısı "Qəbələ" "Proqres"i mübarizədən kənarlaşdırarsa, növbəti mərhələdə "Honved" (Macarıstan) - "Rabotniçki" (Makedoniya) cütünün qalibi ilə qarşılaşacaq.

Topaz Premyer Liqasını üçüncü pillədə bitirən "Neftçi"nin püşkdə bəxti gətirməyib. Paytaxt təmsilçisi "Uypeşt" səddini aşacağı təqdirdə, Avroliqanın 5 qat qalibi "Sevilya" ilə üz-üzə gələcək.

Azərbaycan kubokunun qalibi "Keşlə"nin potensial rəqibi isə ya "Milsami" (Moldova), ya da "Slovan" (Slovakiya) olacaq.

Qeyd edək ki, II təsnifat mərhələsinin ilk oyunları iyulun 26-da, cavab görüşləri isə avqustun 2-də keçiriləcək.

## Basketbolçularımız yeni sınaq qarşısında

Sabah Andorrada 3x3 basketbol üzrə Avropa çempionatının seçmə mərhələsi start götürəcək. İki gün davam edəcək yarışda Azərbaycan komandası da mübarizə aparacaq.

Azərbaycan millisi seçmə mərhələdə A qrupunda Andorra, İspaniya, İtaliya və Yunanıstan komandaları ilə yarışacaq.

B qrupunda isə Macarıstan, Estoniya, Latviya və Serbiya yığmaları güclərini sınayacaqlar.

Qrupların qalibləri birbaşa final mərhələsinə vəsiqə qazanacaqlar. Qruplarda ikinci, üçüncü yeri tutan komandalar daha iki vəsiqə uğrunda yarımfinalda üz-üzə gələcəklər.

Millimiz iyunun 23-də İspaniya, Yunanıstan, ertəsi gün isə Andorra və İtaliya yığmaları ilə qarşılaşacaq.

Turnirə iyunun 24-də yekun vurulacaq.

## Komandamız Dünya kubokunda ikinci yeri tutub

Bakıda keçirilən arena polo üzrə VI Dünya kuboku yarışlarına yekun vurulub. Binə Atçılıq Mərkəzində təşkil olunan yarış Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə keçirilib. Ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə və Milli Qurtuluş Gününə həsr olunmuş yarışda Azərbaycan, Almaniya, İrlandiya və Hindistanı təmsil edən dörd beynəlxalq polo klubunun komandaları kubok uğrunda mübarizə aparıb. Azərbaycanın "Elite Horse and Polo Klub" komandası yarışlarının finalında Almaniyanın "Rhein Polo Klub Düsseldorf" klubuna 7:6 hesabı ilə məğlub olaraq ikinci yeri tutub. Beləliklə, gərgin idman mübarizəsi şəraitində keçən oyunda yarışın qalibi Almaniya poloçuları olublar.

Bu mötəbər yarışda komandamızın heyətində Elçin Camallı (kapitan), Rəşad Həsənov, Əli Rzayev, Amil Namazov, Tərlan Qurbanəliyev və Lala Laplasette çıxış ediblər.

Üçüncü yer uğrunda görüşdə Hindistanın "Indian Polo and Riding Klub Nyu Delhi" komandasının poloçuları İrlandiyanın "Polo Klub Viklov" kollektivi üzərində 7:4 hesabı ilə qələbə qazanaraq bürünc medala sahib çıxıb.



Yarışı beynəlxalq dərəcələri hakimlər idarə ediblər.

Turnirdən əvvəl Azərbaycan Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin dünyada məşhur Qarabağ atlarının iştirakı ilə möhtəşəm şou proqram nümayiş olunub. Milli geyimli çapar Azərbaycan Respublikasının dövlət bayrağını meydana gətirib. Yarış iştirakçıları Azərbaycanın milli rəqslərini izləyib, bədii hissə nümayiş olunub. Şou tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Bu kompozisiyanın nümayişi milli at cinslərinin təbliği və Azərbaycanın qədim atçılıq mədəniyyətinin turnirin xarici qonaqlarına tanıdılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Məlumat verilib ki, həmin proqram mayda Böyük Britaniya və Şimali İrlandiyanın kraliçası Ülyahəzrət II Elizabetin şərəfinə Londonda təşkil olunmuş "Kral Vindzor At Şousu"nda göstərilib.

Final oyunundan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Komandaların üzvlərinə medalları və kuboku ARAF-ın prezidenti Elçin Quliyev təqdim edib.

Elit idman növlərindən sayılan polo yarışı Milli Atçılıq Festivalı çərçivəsində keçirilib. İyunun 2-dən başlayan və dörd müxtəlif növ üzrə keçirilən Milli Atçılıq Festivalında indiyədək cıdır, çövkən və konkur növləri üzrə yarışlar da təşkil olunub.

Qeyd edək ki, ölkəmizin polo üzrə yığması 2018-ci ilin sentyabrında İtaliyada keçiriləcək Avropa çempionatında da təmsil olunacaq.

*Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi*

***Mən Vətənimi çox sevirəm, hər kəsdən, hər şeydən çox. Mən bayrağımı çox sevirəm, o mənim şərəfim, qürür mənbəyimdir, yüksəyə qalxanda titrəyən ürək tellərimdir. Mən bayrağımı çox sevirəm, "susuzluğun od vurub köz kimi yandırdığı dodaq su sevən kimi". Mən ölkəmi çox sevirəm, "işığa həsrət qalan göz işıq sevən kimi". Bayrağım varsa, demək, mən də varam.***

***Mən bayrağımı, vətənimi Tanrım kimi sevirəm, təmənnasız, əbədi, saf sevgi ilə. Vətən sevgisi bütün sevgilərdən üstündür, əzəldir, özəldir. Çürüyüb torpağına qarışmaq istəyirəm, Vətən!. Qoynunda yer ver, bağrına bas bizi, əlinlə tumar çək dərddən ağarmış saçlarımıza, məlhəm ol, köz bağlamış yaralarımıza. Azərbaycanın hər qarışı Vətəndir, amma doğulduğun, havasını ciyərlərinə çəkdiyin, qoxusu burnunda tütüyən el-oba bir ayrıdır. Çox şirindir və onun şirinliyini ayrı düşəndən sonra daha yaxşı anlayırsan.***

***"Biz hamımız Azərbaycanın gələcəyi haqqında düşünürük və düşünməliyik"***

***İlham Əliyev***

# Bayrağımız qürur mənbəyimizdir



### Ana südü qədər şirin, ana qucağı tək isti...

Dahi şairimiz Səməd Vurğun demişkən: "Vətən müqəddəsdir, Vətən pakdır. Vətən ülvidir. Vətən ana südü qədər şirin, ana qucağı tək isti, ana nəfəsi kimi doğmadır, əzizdir". Türkiyədə doğulub Misirdə torpağa tapşırılan yunan yazıçısı Lukian isə deyir: "Vətəndən əziz heç bir şey yoxdur". Romalı natiq, filosof, siyasi xadim Markus Siseron yalnız vətənin rifahı üçün yaşadığını dilə gətirir: "Mən ya vətənimin rifahı üçün yaşamalı, yaxud da onunla birlikdə məhv olmalıyam". Rusiyalı demokrat, materialist filosof Nikolay Çernışevski insanın ləyaqətini onun vətənpərvərliyinə bərabər tutur: "İnsanın ləyaqəti onun vətənpərvərliyinin gücü ilə ölçülür".

Ey Vətən oğlu, düşün, bil ki, səndir bu Vətən,

Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.

Sənin öz dövlətin, öz millətin, öz səddin var.

Vətən uğrunda ölənlər ölümündən doğular.

Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik

Biz Vətən naminə ölsək, dirilərdən diriyik (Bəxtiyar Vahabzadə).

### Şərqdə "ilklər" yazan doğma Azərbaycanım!

Tanrının gözəl əli ilə bizə bəxş etdiyi Azərbaycan öz təbii və mənəvi sərvətləri ilə çox zəngindir. Vətənimin itib-tükənməyən "qara qızıl"ı, kəhrəba buğdası, dadlı-ləzzətli meyvələri, zirvəsi ağ örpəkli dağları, zümrüd kimi yaşıl meşələri, sərin, şəfalı yaylaqları hər kəsi heyrətə gətirir, üzdəniraq qonşularımızı isə narahat edir. Azərbaycan Odlar diyarı, hər qarışı uğrunda şəhidlər verən milyonların ana yurdudur! Bu yurdun övladları olan biz azərbaycanlılar isə tarixin kəhkəşanlı döyüş səhnəsində qalib gəlmiş, məğlubedilməz qəhrəmanlar nəslinin yetirmələriyik. Azərbaycan ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin, İkinci Dünya Müharibəsinin qələbəsində mühüm rol oynayan qırıcı təyyarələr üçün keyfiyyətli yüksək oktanlı benzin kəşf edən akademik Yusif Məmmədəliyevin, dünya elminin inqilabı hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsinin, informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoyan "Z-çevirmə" nəzəriyyəsinin banisi Lütfi Zadənin vətənidir. Biz həmin o azərbaycanlılarıq ki, dünya ədəbiyyatı xəzinəsinə Nizami, Füzuli, Sabir, Mirzə Cəlil və adları saydıqca bitib tükənmək bilməyən dahilər, sənət adamları bəxş etmişik.

XX əsrdə taleyinə iki dəfə müstəqillik zəfərini qeyd etmək yazılmış Azərbaycan zamanın onun üçün hazırladığı çətin və mürəkkəb sınaqlardan üzüağ çıxmağı bacarıb. Həmin əsrdə Şərqdə ilk demokratik respublikanın memarı və yaradıcısı məhz Azərbaycan xalqı olub. Müsəlman şərqində sivilzasiya mənbəyi kimi ilk dram (1850, "Hekayəti-Molla Ibrahimxəlil kimyagər"), ilk teatr (1873, Azdrama), ilk opera (1907, "Leyli və Məcnun"), ilk cümhuriyyət (28 may, 1918-ci il), ilk çoxpartiyalı demokratik sistem, ilk dəfə qadınlara seçki hüququnun verilməsi məhz bizim ölkədə reallaşıb. İlklər hətta sovet hakimiyyəti dövründə davam edib - ilk balet (1940, "Qız qalası), ilk TV (1956, AzTV), SSRİ məkanında ən böyük azadlıq hərəkatı (1988-1990), SSRİ respublikaları arasında ilk olaraq suverenliyin bərpası (23 sentyabr 1989-cu ildə Azərbaycan SSR Ali Soveti "Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında" Azərbaycan SSR-in Konstitusiya Qanununu qəbul edib). Vətənimiz daha bir ilkə - dünyada ilk Avropa Oyunlarının təşkilinə 2015-ci ildə imza atıb və Azərbaycan ilklər yazmaqda davam edəcək!

### Xalqın müdrik xilaskarı

Müstəqillik dövrü Azərbaycan xalqının tarixində şanlı səhifələrdən olsa da, həmin dövr, eyni zamanda, Ermənistanın təcavüzü nəticəsində tökülən qanlarla, qırğınlarla, faciələrlə ən ağrılı tariximiz kimi yaddaşlarda həkk olundu. 1993-cü il oktyabrın 3-də Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlməsi ölkənin daxili və xarici siyasətində əsaslı dönüşün başlanmasına səbəb oldu. Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı. Azərbaycan xalqı müdrik rəhbəri ilə birlikdə dahilərin: "Millət odur ki, ən çətin anda birləşir və özünü təsdiq edir" məfhumunu təsdiq etməyi bacardı. Milli mənlik şüuruna dəyər verən, öz keçmişini unutmayan, gələcəyinə nikbin baxan, mədəniyyətinə sahib çıxan Azərbaycan milləti, xalqı böyükdür, əzəmətlidir və var olmağa layiqdir. Tarix göstərdi ki, Azərbaycanın XX əsrin ikinci yarısını əhatə edən tarixinə öz möhürünü vurmuş, ölkəmizə üst-üstə 23 il rəhbərlik etmiş Heydər Əliyevin dahi şəxsiyyət, müdrik siyasətçi, alovlu vətənpərvər kimi xalqımızın tarixində rolu çox böyükdür.

### Zəfər, "zəfər mənimdir" deyə bilənindir

Canına yağı dadanmış xalqımız əsrlərdir zorla cəlb edildiyi beladan qurtula bilmir. Bu xalq yüz illərdir axşamlarının harda düşdüyünü, sabahlarının nə zaman açıldığını unudub. Hər bir xalq kimi biz də zəfər qazanmağı çox sevirik. Çünki zəfərə, qələbəyə təşnədir səngərlərdə oğullarını qurban verən atalar, analar...

Zəfər iradə və güclü mənəviyyatdan ibarətdir. Müharibə bütün arzuolunmaz tərəfləri ilə bərabər həm də, bir millətin genetik xarakterinin, bütünlüyünün, mənəviyyatının nümayişidir. Çünki insanlar savaşa tək deyil, toplum halında girir. Yurd, vətən, torpaq, tarix, milli mədəniyyət, sosial quruluş, hətta iqlim belə etnosu və milləti müəyyənləşdirən amillərdir. Bunların bütövləşməsində yurd anlayışı mahiyyətcə mənəviləşir və üzərində yaşayan xalqın milli psixologiyasını, əxlaqını və mədəniyyətini yaradır. Mədəniyyəti coğrafi tutarından çox-çox böyük olan Azərbaycan xalqının savaş mədəniyyəti də özünəməxsusdur, tolerantdır.

Azərbaycan xalqı bu 30 illik bir zamanda kimsənin torpağına, gəlirinə tamah salmadan, sadəcə, ona aid olan vətənini, yurdunu, uğrunda şəhid verdiyi torpağını düşməndən azad etmək, yurdunu terror yuvasından, narkotik ticarəti paliqonundan, tarixini, mədəniyyətini barbarcasına məhvedilmədən qurtarmaq istəyir. Bu haqq uğrunda nə "günəşlərimiz" söndü və sönməkdə davam edir...



Fikrimcə, üstün əxlaqın formalaşmasında, yurd sevdasının içimizdə körüklənməsində Milli qəhrəmanımız Mübariz İbrahimovun cihadı və onun nəşini xilas etmək üçün müqəddəs yola çıxan Fərid Əhmədovun qəhrəmanlığı böyük məktəb olmuşdur. Gəncliyimiz bu qəhrəmanlığı bədii əsərlərdən oxuyub, kinolardan öyrənmədi, həyatında gördü, müasiri oldu. Mübarizin cihadı xalqımızın, xüsusən, gəncliyimizin közərən ümidlərini alovlandırdı, özünəgüvəni, mənəviyyatını, korşalmış ruhunu toxum kimi təzədən cücərtdi, həm də zəfərə inamsızlıq yarasını sarıdı, sağaltdı. Mübariz millətinə mesaj verdi: "Zəfər, zəfər mənimdir" deyə bilənindir. Mən bu torpağa zəfərə inamın toxumunu əkdim, qanımla suvardım, onu cücərdin, böyüdün!". Və biz Aprel döyüşlərində Raquf Orucovun, Qabil Orucəliyevin, Murad Mirzəyevin, Samit İmanovun və yüzə yaxın övladlarımızın şəhid düşdüyü torpaqda düşmənə yenildiyini qəbul etdirib, "Zəfər bizimdir" deyə bildik.

Biz uzun zamandır zəfər sevinci yaşamamışdıq, zəfərə, qələbəyə tamarzı idik. Aprel döyüşlərində Azərbaycan oğulları qanlarıyla bu qüruru, güvəni bizə yaşatmaqla bərabər, zəfərin gül bağçasından deyil, savaşa girən toplumun zehniyyətindən, iradəsindən və arxa cəbhə ilə ön cəbhənin eyni vaxtda nəfəs ala bilməsindən keçdiyini öyrətdilər, qələbə öncə düşüncədə, sonra meydanda çalınır, dedilər.

Kəndimiz bərpa olunana qədər 23 il Cocuq Mərcanlıda 7 nəfər ailə üzvü ilə birlikdə tək yaşayan bibim oğlu Oktay Həziyev Aprel döyüşlərində əsgərlərimizin qəhrəmanlığı, vətənpərvərliyi haqqında həyəcansız danışa bilmir: "Ordumuz misilsiz rəşadət göstərirdi. Əsgərlərimiz mənəvi-psixoloji cəhətdən o qədər güclü idilər ki, adamın həyəcandan sanki ürəyi yerindən çıxacaqdı. Zabitlərimiz əsgərlərə nümunə olaraq öndə gedir, sinələrini sipər edirdilər. Qəhrəman əsgər və zabitlərimiz bu dördgünlük müharibədə şanlı tarix yazdılar".

### Biz o yerlərə qayıdacağıq

Hamımız tez-tez vacibliyi vurğulanan "Vətəni sevmək, vətəni qorumaq" kimi ifadələr eşidirik. Əlbəttə, "Vətəni sevmək imandandır" buyurmuş müqəddəs Peyğəmbərimiz. Amma vətən məhəbbəti vətənə qarşı olan sevgi etirafı ilə kifayətlənmir. Türk torpağının övladı Midhad Camal Quntayın dediyi kimi:

Bayraqları bayraq yapan üstündəki qandır;

Torpaq, əgər uğrunda ölən varsa, vətəndir!

Hər bir azərbaycanlının ən böyük arzusu vətən torpaqlarının işğaldan azad edilməsini görməkdir. Qüdrətli, qüvvətli ordumuzun azğın, xəyanətkar düşmənə öz yerini göstərəcəyinə, torpaq uğrunda canından keçən şəhidlərimizin qanının yerdə qalmayacağına inamımız böyükdür. Hər birimiz vətənə xidmət edirik. Bu vətən mənim, sənin, onun, hamımızındır. Hər kəs vətən üçün, onun azadlığı, müstəqilliyi üçün məsuliyyət əsgərdir. Amalımız, qayəmiz, vətən qarşısında borcumuz Azərbaycanın müstəqilliyi və parçalanmaması uğrunda birləşmək, həmrəy olmaqdır. Hamımızın tamarzı olduğumuz bir gün var - QƏLƏBƏ GÜNÜ! O gün tezliklə gələcək. Qələbə günü nidası qisas borcu boynunda qalan, qələbə haqqına sahib çıxacaq azərbaycanlıların zəfər günündək yaşam himnidir! Qarabağın işğal dövrü var, amma işğal ömrü heç vaxt olmayacaq!!!.

Azərbaycan hərb yolu ilə Qarabağ məsələsini həll etmək istəsə, buna mütləq nail olacaq. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin gücü Ermənistanla müqayisədə bunu deməyə əsas verir. İqdisadi üstünlük, əhalinin sayı müharibədə vacib faktordur və məsələdə də üstünlük bizim tərəfimizdədir. Digər tərəfdən, Ermənistanda Qarabağ məsələsinə münasibət birmənalı deyil. Ermənilər Qarabağda döyüşmək istəmirlər. Bizim gənclərimiz isə torpaqların işğaldan azad edilməsi üçün hər an azğın düşmənlə döyüşə hazırdırlar.

Ali Baş Komandanın, qüdrətli ordumuzun rəşadəti sayəsində yenidən öz fəravan həyatına qovuşan doğma kəndim Cocuq Mərcanlının giriş qapısındakı yol nişanı buradan yolun Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına, Füzuliyə, Şuşaya, Xankəndinə getdiyini göstərir!. Tezliklə o yerlərə qayıdacağıq və maşın karvanları həmin nişanının yanından yurdundan-yuvasından didərgin salınan həmvətənlərimi həsrətinə qovuşdurmaq üçün yol alacaq. Qələbə günü çox yaxındadır!.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

DÜNYA İDMANI



# Federer Nadalı qabaqladı

Kişi tennisçilərin yeni reytinq cədvəli açıqlanıb. Roje Federer yenidən birinci pilləyə yüksəlib. Ştutqartda keçirilən turnirin finalında Miloş Raoniçi məğlub edərək, çempion olan isveçrəli raket ustası xallarının sayını 8 min 920-yə yüksəldib. O, bu nəticə ilə Rafael Nadalı qaqaqlayaraq, lider olub.

Aktivində 8 min 770 xalı olan Nadal ikinci, Aleksandr Zverev (5 min 965) isə üçüncüdür.

Qeyd edək ki, Roje Federer karyerası ərzində ilk dəfə 2004-cü ildə ATP reytinqində birinci pilləyə yüksəlib.

# "Rus drujinası" ilk mərhələdə mükafatlandırıldı

Rusiya millisinin futbolçuları, məşqçi və texniki heyəti DÇ-2018-in qrup mərhələsinin ikinci turunda Səudiyyə Ərəbistanı üzərində qələbəyə görə mükafatlandırılıb. Oyunçulara ümumilikdə 6 mil-



yon dollar, məşqçi və texniki heyətə 2 milyon dollar verilib. Yığma 1/8 finala yüksəldiyi üçün bu həftə əlavə olaraq 12 milyon dollar (9 milyon oyunçulara, 3 milyon məşqçi və texniki heyətə) ödəniləcək.

Qeyd edək ki, komanda 1/4 finala çıxacağı təqdirdə isə 15 milyon dollar mükafat ala bilər.

# Hakimlər 40 min ödəyib, 57 min qazanacaqlar

Rusiyada keçirilən dünya çempionatında hakimlərin qazancı açıqlanıb. Elit kateqoriyasına malik referilər yarışda iştirak üçün 57 min avro irəli düşüblər. Bununla yanaşı, ədalət təmsilçiləri hər oyuna 2500 avro mükafata da sahib olacaqlar. Köməkçi hakimlər isə mundiala qoşulmaq üçün 20 min avro, hər görüşə təyinat qarşılığında 600 avro qazanacaqlar. Qeyd edək ki, DÇ-2014-də elit hakimlər turnirə 40 min avro müqabilində qatılmışdılar.

# "Qara qitə"dən olanda nə olar ki?

DÇ-2018-i izləmək üçün Rusiyada olan Seneqal millisinin azarkeşləri nümunəvi hərəkətləri ilə diqqət çəkiblər. Rusiya mətbuatında yayılan xəbərə görə, tərəfdarlar Polşa ilə oyundan (2:1) sonra öz istəkləri ilə stadionda zibillədikləri yerləri təmizləyiblər. Eyni addımı Kolumbiya üzərində 2:1 hesablı qələbə qazandıqları görüşdən sonra Yaponiya millisinin azarkeşləri də atıblar.

# Şayiələrə son: Təyyarədə yanğın olmayıb

Səudiyyə Ərəbistanı yığmasını Rostov şəhərinə daşıyan təyyarənin mühərrikinə girən quş nasazlığa səbəb olub. Bu barədə "Rusiya" aviaşirkətinin mətbuat xidmətinin yaydığı açıqlamada bildirilir. "Eniş ştat rejimdə keçib. Təyyarənin mühərrikində guya yanğının baş verməsinə dair xəbərlər həqiqətə uyğun deyil. Hadisə nəticəsində zərərçəkən olmayıb", məlumatda deyilir.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının futbol üzrə yığma komandası Rusiyada keçirilən XXI dünya çempionatında iştirak edir. Artıq Asiya təmsilçiləri DÇ-nin növbəti mərəhləsinə çıxmaq şansını itirib.



# DÇ azarkeşləri hansı smartfonlara üstünlük verirlər

"OneFactor" şirkətinin analitikləri süni intellekt sisteminə əsaslanan "smartindex" bazası əsasında Rusiyada keçirilən dünya çempionatına yollanan azarkeşlər arasında hansı smartfonların daha məşhur olduğunu müəyyənləşdirməyə çalışıblar. "iPhone X", "iPhone 7" və "iPhone 6" sıralamaya başçılıq edir.

180 min könüllü arasında keçirilən sorğunun nəticələrinə əsasən, "iPhone X" istifadəçilərinin sayı təxminən 10 min nəfərdi. "iPhone 7" və "iPhone 6"nı isə təqribi eyni sayda - ortalama 7 min insan işlədir.





Siyahıya əsasən Səudiyyə Ərəbistanından gələn azarkeşləri ən zəngin hesab etmək olar. Belə ki, hər 5 ərəbdən 1-i "iPhone X" istifadə edir. "Samsung Galaxy J2" telefonuna daha çox üstünlük verən seneqallı fanatları isə bu mənada ən kasıb azarkeşlər adlandıra bilərik.

Bəzi ölkələr və onların azarkeşləri arasında populyar olan smartfonlar:

Səudiyyə Ərəbistanı - "iPhone X" (azarkeşlərin 20%-də);
Braziliya - "iPhone 7" (12%);
Peru - "iPhone 7" (11%);
Avstraliya - "iPhone 6" (9,5%);
Argentina - "iPhone X" (9%);
Seneqal - "Samsung Galaxy J2" (9%);
Cənubi Koreya - "Samsung Galaxy S7" (7%);
Tunis - "Samsung Galaxy J5" (4%).

# Salah uğursuzluğa görə federasiyanı günahlandırır

Misir yığmasının hücumçusu Məhəmməd Salah ölkəsinin futbol federasiyasının rəhbərliyi (EFA) ilə dalaşıb.

"Liverpul" klubunun futbolçusunu narazı salan məsələ Misir komandasının dünya çempionatına hazırlığının federasiya tərəfindən zəif təşkil edilməsi olub.

EFA nümayəndələrindən biri Salahın səs tonuna nəzarət etməsini tələb edib. Bundan hiddətlənən hücumçu öz otağına yollanıb və bir neçə saat heç kimlə danışmayıb.

Məhəmməd Salah Uruqvaya qarşı ilk matçı Çempionlar Liqasının finalında aldığı zədəyə görə buraxmalı olub.



Məlumata görə, EFA təlim məşq toplanışına yüzlərlə biznesmen, artist və şou-biznes ulduzunu dəvət edib və bu futbolçuların əsas diqqəti məşqlərə yönəltməsinə əngəl olub.

Qeyd edək ki, Misir yığması artıq DÇ-2018-in pley-off mərhələsinə çıxmaq şansını itirib.

Həmin oyunda rəqiblər minimal hesabla qalib gəlib. İyunun 19-da keçirilən matçda isə Rusiya yığması Misir komandasını 3:1 hesabı ilə məğlub edib.




# "Nike" şirkəti imtina edib

ABŞ-ın idman ayaqqabıları istehsal edən "Nike" şirkəti İranın futbol üzrə milli komandasına butsi satmaqdan imtina edib.

"Tehran Times" qəzetinin yasdığına görə, şirkət bununla bağlı açıqlama yayıb. Şirkət rəhbərliyi bildirib ki, "Nike" ABŞ şirkəti olaraq hökumətin İrana qarşı tətbiq etdiyi sanksiyalara əməl etmək məcburiyyətində qalaraq futbol üzrə İranın milli komandasını müştərilər siyahısından çıxarıb.

Xatırladaq ki, İranın futbol üzrə milli komandası Asiyada yüksək reytinqə malik olan komandalardan biridir və hazırda dünya çempioantında iştirak edir.

# Lebron Ceyms həyatının qərarını verəcək



NBA-nın "Klivlend" klubunun oyunçusu, əfsanəvi basketbolçu Lebron Ceyms iyulun 1-dən etibarən müstəqil və azad agent statusu alacaq.

Məşhur oyunçu bu statusu aldıqdan sonra istədiyi klubu seçməkdə sərbəst olacaq. Lebron Ceyms iyul ayında yaxşıca düşündükdən sonra istəsə "Klivlend"də qala, istəsə "Leykers"ə, "Filodelfiya"ya keçə, istəsə də "Hyuston" və ya "Boston"la müqavilə imzalaya bilər.

# Belçikada Qran-pri yarışları 2021-ci ilin sonunadək davam edəcək

Formula-1 üzrə Belçika Qran-pri yarışları 2021-ci ilin sonuna kimi davam edəcək. Belə ki, tərəflər dünya çempionatının təşkili ilə bağlı artıq müqavilə imzalayıblar.

Bununla bağlı Balloniyanın iqtisadiyyat naziri Pyer-iv Yexone deyib: "Dünya çempionatının Belçikada təşkili ölkəmizin beynəlxalq arenada daha da tanınması baxımından çox əhəmiyyətlidir. Düşünürəm ki, Formula-1 Qran-prisi regionun iqtisadi inkişafına mühüm təsir göstərəcək. Məhz bu yarışların sayəsində 2017-ci ildə ölkədə investisiyadan gələn gəlirin məbləği xeyli artmışdır".

Cavanşir Qurbanov, Xanlar Qurbanov, Məhərrəm Abdulov, Şahin Əliyev, Sənan Talıbov, Qafar Əsgərzadə və Elşad Dağlı

**Müşfiq Cabir oğlu Novruzovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Cabir Novruz" Mədəniyyət Fondunun kollektivi

**Müşfiq Cabir oğlu Novruzovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi

**Müşfiq Cabir oğlu Novruzovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin kollektivi iş yoldaşları Tahir Ələkbərova, həyat yoldaşı

**Tamella xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Tahir Ələkbərova, həyat yoldaşı

**Tamella xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19